"1885-ci ildə Nathan Aşağı palatadan Lordlar palatasına keçmiş, beləliklə də ölkədəki yəhudi azadlığını ən yüksək səviyyəyə çatdırmışdı... Lord Rotşild həm İngiltərənin mərkəzi bankı olan "Bank of England"in başçısıdır, həm də əksər ingilis firmalarının idarə heyətinin sədridir... Nathan 1902-ci ildə İngilis Krallığı Əcnəbilər və Mühacirlik Komissiyasına üzv seçilmiş, Teodor Herzlə də orda tanış olmuşdu".

Nathan Aşağı palatadan Lordlar palatasına baş nazir U. E. Qladston və Lord Qrinvill sayəsində keçmişdi. Kraliça Viktoriya "bir yəhudinin Lordlar palatasına soxulması bizə ciddi zərər vura bilər" deyərək buna etiraz etmiş, lakin bu etiraz elə onun özünə qarşı istifadə olunmuşdu. Nathanın bu yüksəlişi ingilislərin qeyri-yəhudi aristokratiyasının yəhudi varlıları tərəfindən dövlət işlərindən uzaqlaşdırılmasına səbəb olmuş və İngiltərədə Yəhudi hökumətlər dönəminin əsasını qoymuşdu.

20-ci əsrin 40-cı illərində Lordlar palatasında mələz yəhudilərdən əlavə 60 yəhudi vardı. Kasıb ingilis aristokratları zəngin yəhudi qadınlarla evləndiklərinə görə ingilislərin həmişə fəxr elədikləri əsl aristokrat qanları qarışmışdı. Öz irqlərinin qorunmasına çox vasvası yanaşan yəhudilər qadınlarının əsilzadə ingilislərlə evlənib titul və nüfuz qazanmaqlarını dəstəkləyirdilər. Bu gün yəhudilər həm Lordlar palatasında, həm də Aşağı palatada sayca çoxluq təşkil edirlər. Aşağı palataya seçilən yəhudilər bö-

yük torpaq sahibləridir və həmin torpaqlarda yaşayanlar tərəfindən seçilirlər. Hazırda Çörçil, Eden və Kuper kimi baş nazirlər tərəfindən idarə olunan İngilis hökuməti və imperiyasının ərazisindəki tənəzzül yəhudilərin təsiri ilə daha da sürətlənir. Böyük Britaniya Yəhudi protokollarında adı çəkilən dövlətlərdən biridir. Protokolların ilk dəfə 1905-ci ildə Nilus tərəfindən nəşr olunduğuna baxmayaraq, onlar daha əvvəllər də istifadə olunurdu.

"Sionist Ağsaqqal Məclisi"nin Bazel şəhərində keçirilən iclaslarında qəbul olunan protokollardan biri, yaxud bir neçəsinin Teodor Herzl tərəfindən yazıldığı güman edilir. Kimin yazmağından asılı olmayaraq, protokolların, Rotşild ailəsinin sərvətinin təməlində dayanan əxlaqi və siyasi fəlsəfəni əks etdirdiyinə şübhə yoxdur. Mayer Amşel Rotşild yəhudi olmayan hər kəsə nifrət eləyirdi və nifrətini dinlə bağlayırdı. Bu hiss Rotşildlər ailəsində nəsildən-nəslə keçib. Bu dini nifrət, yüz illərlə qeyri-yəhudilərə tətbiq olunan "gözə-göz, dişə-diş" prinsipini, ailə fəlsəfəsinin əsasında duran Talmud, Yəhudi protokolları və kommunist manifestindən götürüb. Bəlkə, bu prinsip Mayer Amşelin yaşadığı dövrdə Rusiyada, Almaniyada əzilən yəhudilər üçün keçərli ola bilərdi. Lakin bu hiss ravvinlər, Talmud təlimi, protokollar və "Yəhudi Agentliyi" Təşkilatı tərəfindən hələ də canlı tutulur.

Nathan Mayer Rotşild 1915-ci ildə vəfat etdikdən sonra Londondakı bankda yerinə böyük oğlu Lord II Lionel Volter keçdi. O da "Yəhudi Agentliyi Təşkilatı"nın üzvü idi. 1937-ci ildə Lionel Volter də dünyasını dəyişdikdən sonra yerini böyük oğlu Lord III Nathan Mayer Viktor tutdu. Bu şəxs hələ də "Bank of England"in qızıl bölməsinə başçılıq eləyir. İkinci və üçüncü Lord Rotşildlərin tarixçəsi hələ çox

təzədir və qələmə alınmayıb. Bu vəziyyətdə Rotşild nəslinə aid bütün sağlam kişilərin "Yəhudi Agentliyi Təşkilatı"nın üzvü olduğunu düşünmək tamamilə normaldır. Bu agentlik Rotşildlərin sərvətinin siyasi gücünü təşkil edir.

### *Baron Ceyms Rotşild dövrü – 1836-1868*

1836-cı ildə Nathan öldükdən sonra xanədanlıqda onun taxtına böyük oğlu, London təşkilatının başçısı Lionelin əvəzinə Paris təşkilatının başçısı Amşelin beşinci oğlu Ceyms oturdu. O vaxtlar Lionel hələ 28 yaşında idi və əmisi Solomonun qızı Karlotta ilə evlənmişdi. Solomon ailənin ən güclü və zəngin fərdi idi. Yəhudi tarixinin bütün araşdırıcıları Ceymsin Lionelin yerini tutmasının səbəbini izah edə bilmirlər.

Qraf Çerep-Spiridoviç bu dəyişiklik barədə belə deyir: "Ceyms Rotşild 1792-ci ildə doğulub, 1836-1868-ci illərdə imperiyanı idarə edib. O, Vyanada yaşayan qardaşının "Çirkin Betti" ləqəbli qızı ilə ailə qurub. Nathanın etdiyi cinayətə görə oğlu Lioneli dünya imperatorluğundan əl çəkməyə məcbur etmişdilər və Rotşildlərin üçüncü hökmdarı Ceyms olmuşdu".

1836-cı ilin iyul ayında Anselm Solomon və Karl Rotşild Frankfurtda görüşərək Nathanı mühakimə etmişdilər. Nathan ailənin ən bacarıqsız üzvü idi. O düşünürdü ki, xristian dinini qəbul edərək ingilisləri daha rahat aldatmaq olar. Buna görə də dinini dəyişmək istəyirdi. Yəhudi tarixini araşdıranlar qeyd edirlər ki, Lionelin nikahı şərəfinə Parisdə ailə məclisi təşkil olunub. Həmçinin göstərilir ki, məclisdən sonra Nathan dəhşətli spazmlar keçirib. Bu, zəhərlənmənin əlaməti olsa da, həkimlər ağrıların səbəbini tapa bilməyiblər və o, bir neçə saat sonra dünyasını dəyişib. Beləliklə, Nathanın xanədanlığı əmisi Ceyms və onun oğullarına keçib.

Tarixdə Ceyms haqqında məlumat az olsa da, onun rəhmsiz, soyuqqanlı, təmkinli, qanun tanımayan bir insan olduğu, ailənin Paris qolunu gücləndirdiyi bəllidir. O, vəfat edəndə sərvəti 200.000.000 dollardan çox idi. Təbii ki, ailə, sərvətlə bağlı heç bir qeyd aparmadığı və ya dövlətlərə açıqlama vermədiyi üçün onların sərvəti haqqında fikirlər təxmini xarakter daşıyır.

***Baron Alfons D. Rotşild dövrü – 1868-***

Sesilya Rothun yazdığı əsərdə Rotşild ailəsinin London qolunun tarixi 1939-cu ilə qədər verilib, ancaq Paris qolu haqqında məlumat yoxdur. Odur ki, ailənin Paris xanədanlığı haqqında məlumatlarımız olduqca azdır.

Con Riv 1887-ci ildə çap etdiyi kitabında yazır:

"Baron Alfons D. Rotşild hazırda ailənin rəisidir. Baron Ceymsin böyük oğlu olan bu adam atasının maliyyə zəkasına sahibdir. Ailənin digər üzvləri onu ən güclü fərd olaraq qəbul edirlər. Alfons yalnız ağlına və qabiliyyətinə görə deyil, həm də Mayer Amşelin ən böyük nəvəsi olduğu üçün bu rütbəyə layiq görülüb.

***Jerobim Rotşild (digər adı Corc Mandel) dövrü***

Corc Mandel (Jerobim Rotşild) xanədanlığı haqqında 1940-cı illərdə eşidilən gündəlik xəbərlərdən başqa heç bir məlumat yoxdur. Jerobim Rotşildin Kral Alfonsun davamçısı olub-olmadığı və ya Alfonsdan sonra kralın kim olduğu barədə də heç nə bilmirik. Amma 1940-cı ildə xanədanı və ailə sərvətini ailənin Paris qolundan olan Corc Mandelin idarə etdiyi məlumdur.

Bu şəxs 1918-ci ildə Versal sülh müqaviləsi imzalananda dövrünün əsas simalarından biri idi. 1940-cı ildə ma-

yın 27-də yəhudi mətbu orqanlarından biri olan "Time Magazine"də Corc Mandelin öz əlaltısı, Fransa prezidenti Pol Reynod ilə birgə şəkli dərc olunmuşdu. Bu şəkildən onun Çirkin Bettinin nəvəsi olduğu aydın olur. Bu insanın Versal müqaviləsində, Brüssel Maliyyə konfransında, 1920, 1930 və 1937-ci illərdəki iqtisadi böhranlarda böyük payı var. Həmçinin, Corc Mandel, Franklin D. Ruzveltin Amerika prezidenti seçilməyinə, "New Deal" adlı Amerika siyasətinin yaranmasına və II Dünya müharibəsinə ciddi təsir eləyib.

Yəqin ki, əsl adı Jerobim Rotşild olduğu halda Corc Mandel adını götürməklə o da digər yəhudilər kimi ətrafındakı insanları aldatmaq istəmişdi. Axı bu adamın adını gizlətmək üçün insanların hüquqlarını tapdalayanların başçısı olmağından başqa nə səbəbi ola bilərdi?

İsidore İsokoviç adlı yəhudinin adını dəyişərək Eddi Cantor qoyması normaldır. Amma Rotşild soyadı Mandeldən daha üstün idi. Ailə üzvlərinin dünyadakı siyasi və iqtisadi hakimiyyətin rəmzi olan Rotşild soyadından utanması mümkün deyil. Rotşild əksər krallar tərəfindən yüksək qiymətləndirilən soyaddır. Böyük ailənin başında duran bu şəxsin adını dəyişdirməsi qanındakı gizliliyə olan meyildən irəli gəlir.

"Gizli əl" kitabının müəllifi yazır ki, 1925-ci ildə Rotşild ailəsinin sərvətinə parisli Edvard Rotşild başçılıq edib. Amma Jerobim Rotşildin 1925-ci ildən əvvəl və sonra Fransa hökumətinin vacib üzvlərindən biri olduğu və Versal müqaviləsində Klemensauya müşavirlik etdiyini nəzərə alsaq, həmin dövrdə Edvardın ailə başçısı olması mümkün deyildi. Yəhudi xalqı üçün ailənin ən böyük liderinin rəsmi vəzifədə olması böyük qürur idi.

## *Rotşild Ailəsinin Sərvəti*

*"Qızıl heç vaxt tükənməyən bir gücdür və belə də qalacaq. Qızıl ona sahib olanlar üçün çox faydalı bir vasitə, sahib olmayanlar üçün isə qısqanclıq mənbəyidir".*

*Ravvinbaşı Reyxornun cənazəsindəki nitqdən götürülüb.*

Nathan Rotşild ailə sərvətini beş il içində 3.000.000 dollardan 7.500.000.000 dollara çatdırmışdı. 1848-ci ildə bu ailəyə məxsus olmayan bütün bankların ümumi büdcəsi cəmi 362.000.000 frank olduğu halda Rotşild ailəsinin Paris şöbəsinin bütün sərvəti 600.000.000 frankdan çox idi.

Ailənin Berlin, Vyana və Neapol şöbələri haqqında heç nə bilmirik, ancaq bu şöbələrin fəaliyyət göstərdikləri ölkələrin pul bazarlarını nəzarət altında saxladıqlarına şübhə yoxdur.

Nathanın London şöbəsində ildə 500% gəlir götürüldüyünü nəzərə alsaq, ailənin London şöbəsinin 1840-cı ildəki sərvəti 100.000.000.000 dollardan artıq olmalı idi. Təbii ki, illik 500 % sərvət artımı daim davam eləyə bilməzdi. Ancaq hətta 10 % -lik artımla belə ailənin Londondakı sərvətini 1840-cı ildə 20.000.000.000 dollardan çox ola bilərdi. Bu sərvət indi oxuduğunuz kitabı yazmağımdan (1940) yüz il əvvəl əldə olunub. 1940-cı ildə Rokfeller, Karnegi və Ford firmalarının (Amerikanın ən böyük üç firması) ümumi sərvəti 2.000.000.000 dollardan az idi.

Faiz gəlirləri Rotşild ailəsinin gəlirlərinin çox kiçik bir parçasıdır. Bu ailənin əsas gəliri müharibələrdən və iqtisadi böhranlardan əvvəl və sonra aparılan spekulyasiyalardan qazanılıb. Bu ailə son yüz ildə dünyadakı bütün əhəmiyyətli birjaların ən əhəmiyyətli oyunçularıdır. Ailə əlindəki inanılmaz sərvət sayəsində istənilən birjada

qiymətləri dəyişdirə biləcək gücə sahibdir. Rotşild ailəsinin sərvəti 1940-cı ildə dünyada iqtisadi böhranlar, bazarlarda konyuktura yarada biləcək səviyyədə idi. Bu güc sayəsində ailə birjalarda qiymətləri endirib hissələri aşağı qiymətlərdən yığır və daha sonra çox yüksək qiymətlərlə satırdı. Bu əxlaqsız tədbirlər sayəsində yəhudi irqi dünya sərvətinin çoxunu ələ keçirib.

Rəsmi qeydlərə görə, Rotşild ailəsinin 1817-1848-ci illər arasında müxtəlif dövlətlərə verdikləri kreditlərin cəmi 654.487.200 sterlinq həcmindədir. Rəsmi sənədlərə görə, Amerikadakı vətəndaş müharibəsini də bu ailə maliyyələşdirib. Ailə eyni vaxtda həm Napoleona, həm də onun düşmənlərinə kredit verib.

"Avropadakı əlaqələr sayəsində bəzi yəhudi maliyyəçiləri Amerika tarixində böyük rol oynayıb. Hemmi Solomon Amerika Azadlıq Mübarizəsini maliyyələşdirib. Vətəndaş müharibəsində isə "Seligman Brothers və Speyer& Co" Şimalı dəstəkləyəndə Erlanger Cənubu maliyyələşdirib. Daha sonralar "Kuhn, Loeb5& Co" Amerika Dəmir Yollarını maliyyələşdirib".

Amerikalılar tərəfindən azadlıq qəhrəmanı kimi tanınan Hemmi Solomon əslində Rotşild ailəsinin casusu idi. Rotşild ailəsi Amerika azadlıq mübarizəsi və vətəndaş müharibəsinin gizli maliyyəçisi idi. Bu ailə döyüşlərdə tərəf tutmur, çünki sadəcə qazanacağı pulu düşünürdü. Dünyadakı dövlətləri yıxıb Yəhudi imreriyası qurmağı arzulayan bu ailə əvvəl müharibəni yaradır, sonra da düşmən dövlətləri maliyyələşdirir.

Rus baş generalı Kont Çerep-Spiridoviçin iddiasına görə, Rotşildlərin ailə sərvəti 1925-ci ildə 300.000.000.000 dollar olub, bu məbləğin 100.000.000.000 dolları I Dünya müharibəsindən qazanılıb. I Dünya müharibəsindən sonra bir çox kiçik döyüşlər, iki böyük iqtisadi böhran, 1929-

1930-cu illər fəlakəti və 1937-ci ildə Ruzveltin məğlubiyyəti birjaları alt-üst etmişdi. Bunlar nəzərə alınarsa, Rotşildlərin sərvətinin 1940-cı ildə 500.000.000.000 dollar məbləğində, yəni ABŞ-ın real ümumi daxili hasilatının iki qatı olduğu təxmin edilir. Bu halda Rotşild ailəsinin bütün üzvlərinin var-dövlətini müəyyənləşdirmək qeyri-mümkündür. Çünki bu insanların bəzilərinin sərvətinin məbləği qətiyyən açıqlanmır. Bu gizliliyin səbəbi, sadəcə, babaların vəsiyyəti deyil, həm də Yəhudi protokollarında göstərilən məqsədlərə çatmaq üçün tətbiq olunurdu. Ehtimallara görə, yəhudilər Almaniya, Avstriya, Polşa və Çexoslovakiyanın bütün mülkiyyətinin beşdə dördünə sahibdirlər. İngiltərə, Fransa və İtaliyada isə bu nisbət yüzdə əllidən çoxdur. Bu ölkələrdə müəyyən banklar, dəmir yolları, media, silah və polad fabrikləri yəhudilərə məxsusdur. Amerikanın var-dövlətinin yarısı da onlara aiddir. Yəhudilər bir-iki istisna xaricində Nyu-Yorkdakı bütün böyük bankların sahibidilər. Nyu-York Federal Bankını onlar idarə edirlər, sığorta şirkətləri və dəmir yollarının, demək olar ki, hamısı yəhudilərindir. Dəmir-polad və silah sənayesinin 70%-i, media qurumları, xəbər və reklam agentlikləri, radiolar, kino sənayesinin 80%-i yəhudilərə məxsusdur. Amerikada bütün sahələr yəhudilərin monopoliyasındadır.

640.000.000 dollar həcmində var-dövlətinin yarısı nağd, digər yarısı isə vergidən azad dövlət sənədlərindən ibarət olan "J.P.Morgan&Co" səhmdar bankı həmişə Morgan ailəsi tərəfindən idarə olunan, qeyri-yəhudi qurum kimi tanınırdı. Ancaq bu yaxınlarda Müvəqqəti Milli İqtisad Komitəsinin apardığı araşdırmalar nəticəsində firmanın sadəcə 9,1%-nin J.P. Morgana məxsus olduğu meydana çıxıb. H.B Davison 1,2%; Corc Uitni 1,9 %; Ças. Ui. Stil Estet və Tus .Ui. Lamont da daxil olmaqla digər ortaqlar isə 1-6,1 %

arası hissəyə sahibdirlər. Bu istisna ortaqlar bir yerdə firmanın 36,6%, ya da 34,2%-nə sahibdirlər.

J.P. Morgan çox varlı adamdır; Tus. Ui. Lamont heç vaxt varlı sayılmayıb, Ças. Ui. Stilli isə heç tanıyan da yoxdur. Lakin bu adamların firmadakı hissələrinə fikir verəndə J.P. Morgandan ən azı üç dəfə varlı olduqlarını görürük. Lamont və Stillin firmadakı hissələrin əsl sahibi olmadıqları qətidir. Bu adamlar Rotşild sərmayəsinin "pərdəsi" vəzifəsini yerinə yetirirdilər. Yəni "J. P. Morgan&Company" əslində Rotşildlərin firmasıdır. Bəlkə də "Morgan&Company" adlı firmaların heç vaxt bir-birlərinə rəqib olmamasının, hətta daima bir-birlərini dəstəkləmələrinin səbəbi də elə budur. Müvəqqəti Milli İqtisad Komitəsinin "Kuhn, Loeb&Company" adlı firmanı istintaqa cəlb etməməyi də maraqlıdır. Daha əvvəl Senat Araşdırma Komitəsi də bu firmanı yoxlamayıb. "Kuhn, Loeb&Company" firmasının hər zaman istintaqdan kənarda qalması təsadüfdümü? Deyilənlərə görə, bu firma müxtəlif çirkin işlərlə məşğul olur və gizli əməliyyatları maliyyələşdirir. Amerika xalqının bu firmanın Lenin və Trotski kimi adamlara maliyyə dəstəyi verdiyini öyrənməyə haqqı var.

"Kuhn, Loeb&Co" firmasının bütünlüklə Rotşildlərə məxsus olduğu məlumdur. Firmanı istintaqa cəlb etmək bu sərmayənin strukturunu, firmanın malının nağd və vergidən azad dövlət sənədləri hesabına yarandığını ortaya çıxaracaq. Rotşild ailəsi xalqın marağını təmin etmək üçün sadəcə 70%-nə sahib olduğu "J.P. Morgan&Company"nin qeydlərini rəsmi komitəyə açıqlamağa razı olmuşdu. Daha əvvəl Senator Komissiyasının apardığı araşdırmalarda J. P. Morganın, Tus. Ui. Lamontun heç vaxt gəlir vergisi ödəmədikləri müəyyən olunmuşdu. Bu adamlar dekabr ayında öz hissələrini ziyanına tanıdıqları adamlara sataraq il ərzindəki gəlirlərini ilin sonu zərərlə yox edir və vergi

ödəmirdilər. "Kuhn-Leob" firmasının sahibləri də oxşar şəkildə davranırdılar. Qeyri-yəhudi mənşəli sahibkarların vergi ödədikləri, yəhudilərin isə vergidən azad sənəd gəlirləri, yaxud vergi qaçaqçılığı ilə məşğul olduğu bir ölkədə milli sərvətin çoxunun yəhudilərin əlinə keçməsi normal haldır.

Təbii ki, Rotşildlərdən başqa xeyli yəhudi ailəsi var, ancaq dünyadakı yəhudi sərvətinin çox hissəsi Rotşild ailəsinə məxsusdur. Rəsmi mənbələr "Rotşild ailəsinin Lazard, Stern, Speyer və Seligman ailələri kimi yəhudi rəqibləri var. Bu ailələr də Rotşild Planını tətbiq edir!" deyirlər. Bəhs olunan "Rotşild Planı" Avropanın paytaxt şəhərlərində və Amerikada şöbələr açmaq və bu şöbələrin başına ailə üzvlərindən birini qoymaqdan ibarətdir. Rotşild ailəsi digər yəhudi ailələrin, demək olar ki, hamısının yatırımlarını dəstəkləyir. Çünki Rotşildlərin nəhəng sərvətinin agentlərə ehtiyacı var. "Rotşild Planı" vergidən qaçmaq üçün də idealdır. Bu ailədə miras olmadığından varislik vergisi də ola bilməz. Eyni zamanda Rotşildlər, şübhəsiz yaşadıqları ölkələrin vergi təyin edən və yığan rəsmi təşkilatlarını da ələ keçirirlər.

## *Rotşildlərin qorxunc qüdrəti*

*"Nə qədər ki məqsədimizə xidmət edir, yalana, xəyanətə və rüşvətə davam etməliyik. Siyasətdə bizə güc qazandıracaq şəkildə başqalarının sərvətlərinə əl qoymağı öyrənməliyik".*

*2-ci protokoldan*

Yəhudilər gücü əllərinə keçirməklə Avropada onları nəzarət altında saxlayan dövlətlərin təzyiqlərindən xilas oldular. Hesse şahzadəsi Vilyamın sərvətini əmanət etdiyi Mayer Amşel Rotşild və yəhudilər Almaniya və digər

Avropa ölkələrində vətəndaşlıq statusuna sahib deyildilər və vergi mükəlləfiyyəti daşıyırdılar. Norman hökmdarlığı dövründə İngiltərədə yəhudilərə "kralın qeyri-rəsmi vergi yığanları" deyilirdi. Yəhudilər aldıqları faizlərlə ölkə vətəndaşlarının suyunu sıxır, krallar da yəhudilərin suyunu sıxırdılar.

Tarixçi Con Rives Rotşild sərvətinin qüdrətini belə izah edir: "Mayer Amşel oğullarının gələcəkdə ölkələrin müharibə və sülh qərarlarına bu qədər təsir eləyə biləcəklərini təxmin etməmiş ola bilər. Həqiqətən də, Avropa pul bazarlarında çox böyük gücə sahib olan ailənin, ölkələr arasında anlaşılmazlıqlar və sülh yarada biləcək qədər pulu vardı. Müharibə də və sülh də həmişə pul tələb edib. Bu ailənin qarşısında dura biləcək heç bir ticarət gücü yoxdu və heç bir avropalı firma cəsarət edib Rotşildlərin istəmədiyi ticarət fəaliyyətinə qoşulmaz. Təbii ki, Mayer Amşel və oğulları bu səviyyəyə çatmaq üçün kürəklərini Avropa dövlətlərinə söykəmişdilər. Lakin kifayət qədər iqtisadi gücə sahib olandan sonra ailə onu dəstəkləyən dövlətləri öz köləlri halına saldı".

Rotşild ailəsinin gücü əvvəlcə İngiltərə İmperiyasında və daha sonra isə digər ölkələrdə qızıl standartının meydana gəlməsini təmin etdi. Ailə "Bank of England"in (İngiltərə Mərkəzi Bankı) böyük hissəsinə sahibdi, bankın başçısı və qızıl şöbəsinin müdiri Rotşild ailəsindəndi. Ailənin digər ölkələrin mərkəz banklarında böyük payı var. Lap başda gizliliyə həddindən artıq önəm verən ailənin qaydalarına əsasən, İngiltərə Mərkəzi Bankı da sərmayədarlarının adlarını açıqlamır. İngiltərə Parlamentinin bütün əmrlərinə rəğmən, bankın sərmayə sistemi gizli saxlanılır. Avropanın digər mərkəz bankları da bu qaydaya əməl edir. Rotşild ailəsi Paul Varburqu, I Dünya müharibəsindən əvvəl ABŞ-a öz nümayəndəsi

qismində göndərmişdi. Ailə ABŞ-ın müharibə əsnasındakı ixracatlarına qarşı digər dövlətlərin qızılla edəcəkləri ödəmələri ələ keçirməyi planlaşdırırdı. Rotşild ailəsi beynəlxalq ticarətin genişlənməsi üçün Amerikanın kredit həcmini artırmaq bəhanəsilə pulun gücünü və dəyərini artıracaq yeni kredit müqaviləsi mexanizmi yaratdı. Rotşildlər "Morgan&Co", "Kuhn, Loeb&Co", özəl banklar, Nyu-Yorkdakı milli banklar və fondların sərmayələrini idarə edir və əslində Nyu-York Federal Reserv bankı da onların nəzarətindədir. Digər bütün şöbələrin qaynaqları (digər 11 Federal Reserv bankı) 11.744.034.000 dollar olduğu halda federal sistemin bu şöbəsinin büdcəsi təkbaşına 10.094.036.000 dollardır. Senator Karter Qlass iddia edir ki, bu qızıl sertifikatları insanlara aiddir. Amerika hökuməti qızıl sertifikatlarını əcnəbilər və Federal Reserv bankları üçün buraxmışdı. Onların başqa Amerika bankları, vətəndaşlar tərəfindən satın alınması və saxlanması qadağandır. Amerika vətəndaşları və ya banklarına satılan Federal Reserv bonaları inflyasiyanın qarşısını almaq və pulun dəyərini qorumaq məqsədilə Reserv tərəfindən hər an geri yığılma xüsusiyyətinə malikdir.

Rotşild ailəsi qohumu Sasson ailəsi sayəsində Çin və Hindistandakı bankçılıq sistemini də idarə edir. Sasson ailəsi həm də çox qazanclı sahə olan tiryək qaçaqmalçılığı ticarətində liderlərdən biridir.

1830-cu ildə bəzi zəngin katoliklər Rotşildlərlə rəqabət aparmaq üçün bank qurdular, ancaq Rotşildlər onu iflasa uğratdılar. Yəhudi ensiklopediyası bu barədə "katolik bankının iflasa uğramasından sonra Rotşildlər Fransanın dövlət borclarının yeganə sahibi oldu və bununla Fransada yəhudilərə qarşı düşmənçilik qızışdırıldı" – deyir və davam edir: "Rotşildlərin Vatikan Katolik Kilsəsinin

xəzinəsinə də nəzarət elədiyini nəzərə alsaq, Katolik Bankı qurma fikri başdan məntiqsiz idi".

Əgər bu yazılanlar doğrudursa, Rotşild ailəsinin əlində inanılmaz böyüklükdə nağd pul var.

Ancaq bu iddianın doğru olması mümkün deyil, çünki Rotşild ailəsi ticarət bankçılığı ilə yox, səhmdar bankçılığı ilə məşğul olur. Vatikan xəzinəsi, "Bank of England" kimi qurumlar adi pərdədir və Rotşildlər tərəfindən idarə olunur. Yuxarıda deyilənlərdən sonra Rotşild ailəsinin iqtisadi böhrana səbəb olduğu və nəticədə yəhudilərə qarşı düşmənçiliyi körüklədiyi fikri ilə razılaşmaq mümkündür. 1839-1840-cı illərdə baş vermiş və tarixdə "Qıtlıq Dövrü" adı ilə qalmışböhran yanlış olaraq prezident Andrew Jacksonun ikinci "Bank of United States"in yaradılmasına mane olması ilə əlaqələndirilir.

Amerikanın yaşadığı ikinci böyük iqtisadi böhran "73-ün cinayəti" adlanır və 1873-cü ildə baş verib. Böhranın səbəbi gümüş pulların dövriyyədən çıxarılmağıdır. Fransa müharibə təzminatı ödədiyi müddətdə Almaniyada gümüş pulların dövriyyədən çıxarılması əməliyyatını reallaşdıran Rotşild ailəsi dünyadakı sistemi öz lehinə mükəmməlləşdirmək məqsədilə Amerikada "Qızıl Standartı"nı tətbiq elədi. Ailə rüşvət sayəsində Amerikada 1873-cü ildə qəbul olunan Pul Qanununa xüsusi maddə əlavə etdirərək, gümüşü mədəni pulların siyahısından çıxartdırdı.

1893-cü ildə Amerika və dünyada yaşanan iqtisadi çaxnaşmaya isə Rotşild və "Baring Brothers" adlı digər yəhudi firması arasındakı rəqabət səbəb olmuşdu. Rotşild ailəsi "Baring Brothers"i yox etmək istəyirdi. Yəhudi Ensiklopediyası hadisənin nəticələrini belə izah edir: "İngiltərə xaricində Almaniya, Avstriya və Amerikada yəhudi bankçıların mərhəmətsizcəsinə kənardan müşahidə etdikləri birja faciəsi bu ölkələrdə yəhudilərə qarşı düşmənçiliyi artırdı".

Yəhudilər iqtisadi böhranları hər zaman əvvəldən görürlər, çünki o böhranları özləri yaradırlar. Bu insanlar nəinki iqtisadi böhranların qarşısını alırlar, hətta böhran ərəfəsində səhmlərini yüksək qiymətə satıb, birjalar müflis olandan sonra geri yığırlar və sərvətlərinə sərvət qatırlar. Yəhudilər dəfələrlə özlərinin yaratdıqları çaxnaşmalar sayəsində çox qısa vaxt ərzində dünya sərvətinin böyük qismini ələ keçiriblər. Yəhudilər birjadakı çaxnaşmalarda itirməzlər, çünki onların əvvəlcədən xəbərləri var. Yuxarıda yazıldığı kimi, çaxnaşmalar onlar üçün "məhsul yığımı" dövrüdür.

1907-ci ildə Rotşildlərin nəzarətindəki banklar müştəriləri olan ticarət və müxbir bankların haqlarını geri ödəməkdən imtina eləmiş və bu, bank sahəsində böyük bir böhrana səbəb olmuşdu. Ticari banklar, Rotşildin banklarından haqlarını almamış müştərilərinə ödəmə edə bilmirdi və nəticədə bütün iqtisadiyyat donmuşdu. Lakin bu hadisə bütün bankların yığışıb pul və kredit bazarlarını idarə edəcək yeni sistem yaratmalarına təkan verdi. Bu işin ən pis tərəfi o idi ki, pul və kredit bazarlarını idarə edən sistem Rotşildlər tərəfindən yaradıldı. Yeni sistem gələcəkdə yenə çaxnaşmalar salmaq məqsədilə yaradılmışdı. 1920-1930 və indi yaşadığımız 1937-ci ildə baş vermiş "Ruzvelt iqtisadi depresiyası"nın kökündə bu sistem dayanır. Amerika belə böhranları o qədər sıx yaşamağa başlamışdı ki, onlar bizə artıq "təbii bir şey" kimi görünür. Bəzi iqtisadçılar vaxtlarını bu böhranları təxmin eləməyə sərf edirlər. Ümumiyyətlə, iqtisadi böhranlar hər 10 ildən bir baş versə də, F.D.Ruzvelt kommunist yanaşması ilə 1933-cü ildə vüsət verdiyi "Yeni İş" layihəsini bitirməyə tələsmiş və böhranı sürətləndirmişdi. Bütün iqtisadi böhranlar oğurluq, soyğunçuluq etmək və dünyada yəhudi hökmranlığını qurmaq üçün yaradılır.

İqtisadi böhranlar nə qədər pis olsalar da, müharibələr qədər pis deyil. Rotşild sərmayəsi I Dünya müharibəsi və II Dünya müharibələrinə cavabdehdir. Əslində son 150 ildə baş verən bir çox müharibələrə görə bu ailə məsuliyyət daşıyır.

Ailə müharibələrdə qarşı duran bütün tərəfləri maliyyələşdirir və konkret mövqe nümayiş etdirmir. Rotşild ailəsi üçün müharibələr qeyri-yəhudiləri zəiflədən, mənəvi cəhətdən sarsıdan, yəhudi hökmranlığını qurmalarına yardım edən hadisədir. Müharibələr onlar üçün məqsədə çatmağın ən qısa yoludur. Bu oğruların faizin reallaşmasını gözləməyə hövsələləri çatmır. İnsanları iqtisadi böhranların köməyi ilə soymaq da olduqca ləng prosesdir.

Halbuki bəşəri ağrıların, dramların yaşandığı müharibələr çox sürətli gəlir mənbəyidir. Nə qədər ki dünyanı yəhudi sərmayəsi idarə edir, müharibələrin sonu olmayacaq.

"Sidonia" (Rotşild) 1844-cü ildə "Coningsby" adlı kitabda bunları yazır:

"Heç bir cəza qanunu və ya işgəncə üstün irqin zəif irq tərəfindən qəbul olunmasına və ya yox edilməsinə səbəb olmayacaq. İşgəncə edən qarışıq və meləz irqlər əvvəl-axır yox olacaqlar və saf üstün irq yaşamağa davam edəcək..." "İlk yezuitlər yəhudilərdir. Qərbi Avropanı iliklərinə qədər qorxudan rus diplomatiyası da yəhudilər tərəfindən qurulub və idarə olunur. İndi Almaniyada hazırlanan inqilab da yəhudilərin məhsuludur, bu ölkədə bütün yüksək səviyyəli akademik vəzifələr yəhudilərin əlindədir".

"Sidonia" sözlərinə davam edir:

"Sankt-Peterburqa çatanda Rusiyanın maliyyə naziri qraf Kansrinlə görüşməli idim. Orada litvalı bir yəhudinin oğlu ilə rastlaşdım... Madriddə İspaniya naziri

ilə görüşümüzdə mənə oxşayan bir yəhudinin oğluna rast gəldim. Madriddə olanlarla bağlı fransız naziri ilə görüşdüm, orada da bir fransız yəhudinin oğlunu gördüm. Artıq Prussiyanı ələ keçirdik. Qraf Armim kimi dönmə yəhudi hökumətin üzvü oldu.Yəni sevgili "Coningsby", dünya əslində arxa planda baş verənlərdən xəbərsiz olanların ağlına belə gəlməyəcək insanlar tərəfindən idarə edilir".

Sidonia indi, yəni 1940-cı ildə dünyanı gəzib dolaşsa, vəziyyətin dəyişdiyini görəcək. İndi yəhudilər siyasi güclərini və müqəddəs "Qızıl Standartlarını" xristianları bir-birinə qarşı qoyaraq qorumaqla məşğuldurlar. Bütün ordu və donanmalar bu məqsədlə yaradılıb. Sidonia görəcək ki, indi Hitler yəhudiləri Almaniya, Çexoslovakiya, Polşa, Danimarka, Norveç, Hollandiya, Belçika, Fransa və Rumıniyadan qovur, İngiltərə yəhudilərinin güclərini əllərindən almağı planlaşdırır. Eyni şəkildə Mussolini İtaliya, Albaniya və Efiopiyanı yəhudilərdən qurtarıb... Ancaq təəssüf ki, İngilis və Amerika hökumətlərində hələ də yəhudilər var... Müharibəyə qoşulan hər ölkə o biri ölkələrdən gələcək mala və vəsaitə ehtiyac duyur və təbii ki, bu ticarət satıcının qəbul edəcəyi müəyyən məbləğlə aparılır. Aydındır ki, əsas ixracatçı ölkələrin pulları qızılla əlaqəli olduğu üçün dünya ticarətində qızıla böyük tələbat var. Deməli, müharibədə iştirak edən hər ölkə Rotşild ailəsinə və ya onların banklarına müraciət etməyə məcburdur, çünki dünyanın qızıl bazarı bu ailə tərəfindən idarə olunur. Yəni bu ailə müharibələri dayandırmağa qadirdir. Millətlərarası qızıl standartı, media və gizlilik Rotşild ailəsini dünyanın ağasına çevirib.

## Tərəfkeş media

*"Media pis və qaçılmaz hadisələri, vətəndaşların şikayətlərini və problemlərini cəmiyyətə çatdırır. "Söz azadlığının" əsas mövcud olduğu yer "Media" olmalıdır. Ancaq xristian ölkələri medianın gücündən istifadə edə bilmir və beləliklə, əsas silahlarını itirmiş olurlar. Adımızı gizlədərək media vasitəsilə insanların düşüncələrinə təsir edə bilərik. Şükürlər olsun ki, media əlimizdədir. Bu böyük qəniməti əldə edənə qədər çoxlu gözyaşı və qan tökdük. Çoxlu yəhudi qardaşlarımızı itirmiş olsaq da, qələbə qazandıq. Allahın gözündə bizdən bir şəhid bir xristiana bərabərdir".*

*2-ci protokoldan*

Həqiqətən də, xristian ölkələrində bütün media təşkilatları yəhudilərə tabedir. Yəhudilərin kimliklərini gizlədərək xalqın düşüncələrinə təsir etməsi də həqiqətdir. Ancaq protokollarda yazılan "qan və gözyaşı" xristianlara aiddir. Yəhudilərin mediası və onların fəaliyyəti nəticəsində baş verən müharibələrdə xristianların qanı tökülüb, xristianlar gözyaşı axıdıblar.

Yəhudilərin mediadakı sərmayələri gizli saxlanılır, bununla belə, onlar İngiltərə və Fransadakı qəzetlərin, reklam, xəbər və film sənayesinin 100%-nə sahibdirlər. Amerika mediasını tam ələ keçirə bilməsələr də, böyük qəzetlərin 80%-i, reklam və xəbər agentliklərinin 100%-i onlara məxsusdur. Yerli və ya kiçik qəzetlərə isəxəbər və reklam agentlikləri vasitəsilə təsir edirlər. Bu gün Amerikadakı radioların 80%-i yəhudilərə xidmət edir. CBS, RCA və MBC yəhudilərin əlindədir. RCA-nın rəhbəri Sarnoff da MBC-nin rəhbəri Straus da yəhudidir. Yəhudilər maarifçi "Literary Digest" jurnalını alaraq əvəzində "Time"

və"Life" jurnallarını nəşr eləməyə başlayıblar. "Saturday Evening Post" qəzetini alandan sonra rüsvayçı vəziyyətə saldıqları isə hamıya məlumdur.

"The Post" qəzeti Benjamin Franklin tərəfindən təsis olunub. Müstəqil fəaliyyət göstərən bu qəzet Ruzvelt hökumətini tənqid edəndə yəhudi sahibi tərəfindən susdurulub. Bu gün Amerikada qurucularımız tərəfindən bizə miras qalmış konstitusiyanı dəstəkləyən bir dənə də media təşkilatı qalmayıb.

Media, məqsədi insanları aldatmaq və təbliğat vasitəsilə idarə etmək olan yəhudi sərmayəsi tərəfindən degenerasiya edilib.

12-ci yəhudi protokolunda belə yazılır:

"Heç bir xəbər biz yoxlamamış xalqa çatdırılmayacaq. Hazırda dünyanın bir çox yerində xəbərlər bir neçə xəbər agentliyi tərəfindən çatdırılır. Bu agentliklər bizim tabeliyimizə keçəndə xalq yalnız bizim seçdiyimiz xəbərləri biləcək".

Xəbərlər bir neçə xəbər agentliyi tərəfindən yayılır. Bu agentliklər artıq yəhudilərə tabedir. Xəbərlər xalqa onların nəzarəti altında çatdırılır. 12-ci yəhudi protokolu 1905-ci ildən də əvvəl qəbul olunub. Artıq bu sənəddə deyilənlərin hamısı reallaşıb. Bu gün biz amerikalılar yalnız yəhudilərin verdiyi müharibə xəbərlərini alırıq. Bu xəbərlər ingilislərin lehinədi, çünki yəhudilər müharibəni İngiltərədən idarə etmək, "Qızıl Standartları" əvvəlki halına gətirmək, Polşa və Çexoslovakiyanı yenidən bərpa etmək istəyirlər.

İngilis mediasının təsirilə Çemberlin hökuməti devrilib və yerində yəhudipərəst Çörçil-Eden-Kuper hökuməti qurulub. İngilis mediası müharibə tərəfdarıdır və Norveçdə baş verən hadisələrə keçmiş baş nazir Çemberlini qorxaq adlandırıb. İngilis xalqı da amerikalılar kimi əslində müharibə istəmirlər, ancaq yəhudilər və onların idarə et-

diyi media sayəsində ingilis hökuməti müharibənin lap içindədir.

1868-ci ildə Praqada keçirilən dəfn mərasimində baş ravvin Simeon-ben-İhudanın qəbrinin yanında bunları deyib:

"Digər böyük güc mediadır. Media bəzi fikirləri durmadan təkrarlayaraq əhali arasında həqiqət kimi qəbul olunmalarına zəmin yaradıb. Media hər yerdə bizim əlimizdədir".

Bu sözlər indi də təsiri altına düşdüyümüz media şirkətlərinin mahiyyətini açır. Onlar bəzi xəbərləri durmadan təkrarlayaraq həqiqət sırasına keçiriblər. Biz bununla hər gün üzləşirik.

Konqresin puldan və maliyyədən bir az başı çıxan hər üzvü bilir ki, hazırkı iqtisadi böhrandan çıxa bilmək üçün yəhudilərin və "tərəfkeş" medianın pislədiyi inflyasiyaya ehtiyacımız var. Konqres üzvləri çox yaxşı bilirlər ki, inflyasiya bahalıq və maaş, pulun dəyərdən düşməsi deməkdir. Amma onların heç biri irəli çıxıb, inflyasiya tərəfdarı olduğunu dilinə gətirmir. Əksinə, onlar inflyasiya əleyhinə əl qaldırır və onun Almaniya, Fransa və digər ölkələrə vurduğu zərərlərdən danışırlar.

Bəs onlar niyə belə eləyirlər? Bunun səbəbi yəhudilərin dəfələrlə inflyasiyadan istifadə edərək dünyanı fəlakət həddinə çatdırmaqlarıdır. Hamı defilasiyadan qurtuluş yolunun inflyasiya olduğunu bilir, ancaq medianın təsiri ilə bunu deməkdən çəkinirlər. Yəhudi mediası siyasətçiləri qorxu altında saxlayır.

Yəhudilər Amerika və digər ölkələrdə medianı nəzarət altına alır? İnsanların düşüncəsinə, həyatına təsir edən medianın yəhudilərin əlində olması adi bir təsadüfdür? Media xalqın hisslərini, düşüncələrini əks etdirməlidir, ancaq artıq o yalnız yəhudilərin hiss və düşüncələrini əks etdirir. Amerikada keçirilən seçkilərdə media böyük rol oynayır.

Amerika prezidentliyinə namizədlərin yəhudilərə və onların təsiri altında olan mediaya müraciət etməkdən başqa şansı yoxdur, çünki xalqla yalnız media vasitəsilə ünsiyyət yaratmaq mümkündür.

Nəticədə Amerika prezidentləri yəhudilər tərəfindən seçilir və seçdirilir. Demokratlardan iki prezidentdən və respublikaçılardan isə ən azı Huverin yəhudilər sayəsində seçildiyi məlumdur. Prezidentlər və Konqres yəhudilərin köləsidir. Yəni yəhudi irqini tənqid edən və ya irqçiliyə qarşı çıxan amerikalı siyasətçi yoxdur.

Riçard B. Şeridan ingilis parlamentində medianın gücü haqqında belə deyib:

"Medianın sahib olduğu gücü mənə verin, Lordlar palatasını rüşvətdən təmizləyim və sizə, nazirlərə təslim edim, ya da qürursuz və rüşvətxor Aşağı palatanı tərtəmiz təmizləyim. Medianın sahib olduğu gücü mənə verin, mən nazirlərin, bütün rəsmi qurumları idarə etmək hüquqlarını bərpa edim; onlara verilən bütün gücdən istifadə haqqını verim. Bəli, əgər arxamda media kimi bir güc olsa, mənə heç kim toxuna bilməz. Mən istədiyim hər yerə və hər şeyə hücum edə bilərəm. Medianın gücü sayəsində sistemdəki bütün çatışmazlıqları aradan qaldıra və zəiflikləri tarixə gömə bilərik".

7-ci protokolda belə deyilir:

"Qeyri-yəhudi hökumətlərini öz məqsədlərimizə uyğun şəkildə istədiyimiz kimi idarə etməliyik. Onsuz da medianın böyük gücü sayəsində dövlətlərin çoxu bizim əlimizdədir".

1940-cı ildə yəhudilər elə bunu eləyirlər. Onlar dövlətləri müharibəyə sürükləyirlər. Müharibə qan və gözyaşlarına səbəb olsa da, yəhudilər qızıl ehtiyatlarını yenidən ələ keçirəcək, siyasi cəhətdən güclənəcək və nəhayət, "Sionun qanını daşıyan böyük despotun kralllığını" quracaqlar.

Əslində yəhudilərin planı gözümüzün önündədir, amma biz təhlükəni görmək istəmirik. Bu gün ən vacib qəzet və jurnalların yəhudilərin əlində olduğunu bilirik. Eyni zamanda vacib jurnalistlərin və siyasətçilərin yəhudi olduğunu da bilirik. Bizi müharibəyə təşviq edənlərin yəhudi mediası, jurnalistləri, radioları və filmləri olduğunun fərqinə varırıq. Onlar bunu cəmiyyətin xeyri üçünmü edirlər? Xeyr, bunu öz gizli planlarını həyata keçirmək üçün edirlər. Bizim idarəçilərimizin isə dilləri, əlləri və ayaqları bağlanıb, əllərindən heç nə gəlmir.

7-ci yəhudi protokolunda deyilir:

"Siyasətdə müvəffəqiyyət qazanmaq üçün görülən işləri gizli saxlamaq lazımdır".

Yəni siyasətdə hiylə və yalana üstünlük verilir. Nə qədər acı olsa da, bu həqiqətdir! Əgər həqiqəti bilsək, səhvlərimizi düzəldə bilərik. Ancaq nə qədər ki bizi aldadırlar, bunu etmək şansımız çox azdır. Yəhudilər qəzetləri, jurnalları və bankları idarə elədiklərini boyunlarına almırlar. Həmişə başqa firmaların və pərdə rolunu oynayan sərmayədarların adları arxasında gizlənirlər. Həqiqəti deyəndə isə israrla onun yalan olduğunu iddia eləyirlər.

Yəhudilər, protokollarında "bir neçə istisnanı nəzərə almasaq, media tamamilə bizim əlimizdədir..." deyirlər. Təbii ki, bu, dünyanın ən vacib mərkəzlərindəki mediaya istinadən deyilib. 1905-ci ildən əvvəl də vəziyyət belə idi və Almaniya, İtaliya, Fransa və Rumıniya xaric digər ölkələrdə hələ də eyni vəziyyət davam eləyir. Almaniya, İtaliya, Fransa və Rumıniya dövlətləri yəhudiləri milli mediadan uzaqlaşdırıb və onların media firmalarına sərmayə qoymağını qadağan eləyib. Rotşild ailəsinin media sayəsində dünya cəmiyyətini idarə etdiyi, müharibələrə səbəb olduğu, insanların qanı bahasına qızıl ehtiyatlarını artırdığı məlumdur.

Yəhudi protokollarında da göstərildiyi kimi, "Xristian dövlətlərini media vasitəsi ilə istədiyimiz kimi və planımıza uyğun şəkildə idarə etməliyik!" cümləsi və digər cümlələr bu gün tamamilə reallaşıb. O zaman həmin protokolların varlığını hələ də müzakirə etməyin nə mənası var?

Aşağıda bəzi məşhur yəhudi jurnalistlərin və köşə yazarlarının adları sadalanıb:

F.P.Adams ("F.P.A."), Volter Lippman, Devid Lourens, Luis Lipski, İsaak F. Markosson, Çarls Mikolson, Cozef Pulitzer, Markos Eli Ravac, Corc E.Sokolski, Con L.Spivak, Herbert Bayard Svop, Volter Vinçel, Ceyms Vaterman Visi, Fridix Vilyam Vill, Morris Fişbin, Emil Lüdviq-Kohen və başqaları.

Bəzi məşhur yəhudi nəşriyyatlarının adları:

"Moses Annenburg (Philadelphia); David A.Braun (Detroit); Louel Brentano (Nyu-York); Pol Blok, J.H.Biben (Nyu-York), Abraham Kaban (Nyu-York); Levand Bros (Kansas); Adler Çeyn (ABŞ-ın şimal-qərbi); Evqan Meyer (Washington D.C).; Artur Nyuman (New York Journal); "Liberty"nin sahibi Bernar Mak Fadden (Nyu-York); J.David Stern (Nyu-York); Artur Hays Salzberq (New York Times); David Şapiro (Nyu-York).

Məşhur qəzetlərin köşə yazarlığı reklam firmalarının təsiri ilə həmişə yəhudilərə verilir, "Associated Press" və "United Press" bölmələrinə isə yəhudilər doldurulub.

Köşə yazarı Buk Karter bir yazısında "Chicago Daily News" qəzetinin xalqın ixtiyarına verildiyini və alıcıların sırasında "Kuhn, Loeb&Co" şirkətinin də olduğunu yazıb. Bu da yəhudilərin medianı ələ keçirmək üçün istifadə etdikləri üsullardan biridir. Həmçinin qəzetlərə kağız, kredit verən və maddi problemlərə görə hissələrini satışa çıxarmış bir çox qəzetlərin səhmlərini alan "İnternational Paper Company" adlı firma da yəhudilərə məxsusdur. Media

qrupları maliyyə problemləri ilə üzləşən kimi yəhudilər dərhal bu qrupun üstünə atılırlar.

Maraqlısı odur ki, bütün yəhudi jurnalistləri müharibə tərəfdarı olduğu halda, xristian jurnalistlər müharibə əleyhinədirlər. Konqresin yəhudi mənşəli üzvləri müharibənin tərəfdarı, xristian üzvləri isə əleyhinədirlər. Böyük şəhərlərdə yəhudi sərmayəsi ilə çıxan qəzetlər müharibəni qızışdırır, əyalət qəzetləri isə müharibəyə qarşı çıxırlar. Biz xristianlar I Dünya müharibəsindən sonra avropalıların bizə qarşı olan hörmətsizliyini unutmamışıq. Avropalı Müttəfiq Güclər deyirdilər ki, müharibəni biz yox, onlar udublar, bizim üçün döyüşüblər, odur ki, onların müharibə borclarını da biz ödəməliyik.

Müttəfiqlərimiz bizi qəddarcasına "sələmçi əmi" adlandırmış və onların 12.000.000.000 dollar məbləğindəki borclarını ödəməyimizi istəmişdilər. İngiltərənin bu hazırkı baş naziri Uinston Çörçill bəyan eləmişdi ki, Amerika I Dünya müharibəsinə qoşulmaqla müttəfiqlərə böyük zərər vurub, Amerika olmasaydı, müharibə iki il tez bitə bilərdi. Əgər elədirsə, indi də biz, yəni "sələmçi əmilər" müharibəyə qoşulmaq istəmirik; Amerika müharibəni və müharibənin məsuliyyətini istəmir. Avropalı müttəfiqlər istədikləri qədər müharibə edə və istədikləri vaxt sülh bağlaya bilərlər.

Çox təəssüf, deyəsən, yəhudilər radionun, əllərindəki medianın gücü sayəsində keçmişimizi unutduracaq və Avropanı xilas etmək üçün bizi müharibəyə cəlb edəcəklər. Halbuki Amerika xalqı həqiqəti öyrənsə, duyğularının idarə olunmasına imkan verməsə, ölkəmizdə bir nəfər də ingilis tərəfdarı tapılmaz. Əgər adlarını dəyişdirən yəhudi köşə yazarları əsl adlarını və niyyətlərini açıqlasalar, heç bir amerikalı onlara inanmaz.

Aşağıda adını, soyadını dəyişərək həyatımıza daxil olmuş bəzi kino ulduzları göstərilib:

Eddie Kantor (İsidor İsikoviç); Eduard G.Robinson (Emmanuel Qoldenberq); Pol Muni (Muni Ansfrend); Cek Benni (Con Kabelski); Ben Berni (Benjamin Anzeloviç); Con Qarfild (Yulius Qarfinkl); Rikardo Kortez (Cek Krantz); Corc Barns (Nathan Birbaum); Bela Lugosi (Bela Blasko); Ed Uinn (Ed Leopold); Nik Stuart (Nikolas Pratza); Bert Lahr (İrvinq Lahrheim); Corc Sidney (Sammi Qrinfild); Co Penner (Cozef Pinter); Reykel Torres (Paula Osterman); Fanni Brays ( Fanni Bruk Arnşteyn Rosenberq); Sofi Taker (Sofi Abuza); Harri Qreen ( Harri Blitzer); Harri Rixman (Henri Rixman); Ted Livays (Teodor Fridman); Kenet MacKenna (Leo Maylziner); İna Kleir (Fagen); Duqlas Fairbanks, Jr. (Ullman); Silvia Sidney ( Jason); Al Jalson (Yoelson); Çarli Çaplin (Tutosteyn); Pauletti Quddard (Levi); Elayn Barri (Jacobs); Ezel Merman (Zinnerman); Sibil Ceyson (Jacobs); Luis Reyner; Bobbi Brayn; Jozef Şilkraut; Laynel Stander; Qreqori Ratoff; Tonni Martin; Cak Perl; Corc Cessel; İrvinq Payçeel; Ritz Brozers; Marks Brozers və başqaları.

Təbii ki, kino ulduzları köşə yazarları qədər vacib deyillər, ancaq onlar Amerika kinosunun bayağılaşmasına, yəhudi zarafatlarının tanınmasına və yəhudilərə qarşı rəğbətin artmağına xidmət edirlər. Amerika filmləri və radioları niyə müharibə tərəfdarıdır? Təbii ki, yəhudi sərmayəsinin əlində olduqlarına və onlar tərəfindən idarə edildiklərinə görə! Yəhudi gizli planı qan və gözyaşları bahasına reallaşdırmağı qarşıya məqsəd qoyub və bu plan bütün xristian idarələrin yox edilməsi niyyətini güdür. Əlbəttə, yəhudi protokollarında radio və kinematoqrafiyadan bəhs edilmir, çünki yəhudi sənədləri hələ onların olmadığı dövrdə qələmə alınıb. Ancaq insanların fikirlərinə

təsir edə biləcək bu iki sahə ortaya çıxan kimi yəhudilər onları da öz təsirləri altına alıblar. Bu təkcə Amerikada deyil, həm də dünyanın bütün vacib ölkələrində belədir. Görəsən, niyə? Bu, sadəcə, bir təsadüf deyil, yəhudilərin məqsədlərinə uyğun şəkildə baş verib. Kino və radio israrla, əsaslı şəkildə yəhudilərin niyyətinə uyğun istifadə olunur.

Yəhudi protokollarının mövcud olması bu sənəddə yazılanların doğru çıxması ilə sübut olunub. Yəhudi protokollarında da göstərildiyi kimi, onlar qızılı, birjaları və medianı idarə etməklə, siyasətçiləri yönləndirməklə, müharibələr yaradaraq dünya tarixini öz məqsədlərinə uyğun dəyişirlər.

## Cinayət şəbəkəsi

*"Ölüm hamı üçün labüddür. Məqsədlərimizə qarşı çıxanların ölümünü tezləşdirmək daha yaxşıdır. Masonlardan elə gizli istifadə etməliyik ki, qardaşlarımızdan başqa heç kim, yəni qurbanlarımız niyyətimizdən xəbər tutmasın. Qurbanlar onlara verilən edam cəzasının fərqinə varmayacaqlar, əksinə, elə biləcəklər ki, təbii səbəblərdən ölürlər. Bunu bildiyimiz halda, heç qardaşlarımız da məqsədlərimizə qarşı çıxmayacaqlar. Məqsədlərimizə qarşı çıxmamaları üçün masonların ürəyinin içinə qədər girmişik. Xristianları liberalizmə təşviq edərkən öz xalqımızı məqsədlərimizə uymağa inandırmalıyıq".*

*15-ci protokoldan*

Öz dedikləri kimi, ola bilsin, masonluğun əsasını yəhudilər qoyub. Masonların istifadə etdiyi bir çox rəmzlər elə yəhudilərlə bağlıdır. Ancaq Amerika masonluğu Avropa qitəsindəki yəhudilərin ideallarına xidmət edən siyasi təşkilat deyil.

Amerikada fəaliyyət göstərən "Ahit övladlarının müstəqil təriqəti" (B'nai B'rith) Avropa qitəsindəki gizli yəhudi mason təşkilatının davamı olaraq yaranıb. Əgər yəhudilər Amerika mason təşkilatına rahat qoşula bilərsə, yeni təşkilata nə ehtiyac var idi?

"Ahit övladlarının müstəqil təriqəti" (B'nai B'rith) nədir?

"Ahit övladlarının müstəqil təriqəti" beynəlxalq məxfi mason təşlkilatıdır. Təşkilata çikaqolu Henri Monski rəhbərlik edir. Yəhudi yazıçısı Lüdviq Levişon 1848-ci ildə Nyu-Yorkda yaradılmış təşkilatı "Yəhudilərin dünya hökmranlığını təmsil edən təşkilat" adlandırır.

Təşkilatın məqsədləri nədir?

"Təşkilatın məqsədi "yəhudilərin əsas məqsədinə" çatmaqdır. Bu isə yəhudilərin xristianlar üzərində hökmranlığı deməkdir".

İllinoist yəhudi meri Henri Horner B'nai B'rithin jurnalının 26 aprel 1934-cü il tarixli nəşri haqqında "B'nai B'rithin məqsədləri ilə nazir Ruzveltin məqsədləri üst-üstə düşür!" demişdi.

Fransız inqilabı zamanı qadınları, uşaqları, kişiləri amansızlıqla öldürən İllüminati də bu təşkilatın bir qoludur. Rus çarları və digər ölkələrin hökmdarlarını öldürməklə məşhurlaşan Nihilistlərin də bu təşkilatla əlaqəsi var. Almaniyanın Fransadakı attaşesi Fon Ratsı qətlə yetirmiş və buna görə də yəhudilər tərəfindən qəhrəman elan edilən Herşeel Qrinzpanı Avropa qitəsinin mason təşkilatı tutmuşdu. Bütün dünyada yəhudilər qatil üçün pul yığıb, onu müdafiə eləməkdən ötrü ən güclü vəkillərdən ibarət komanda toplamışdılar.

Yəhudi fransız hökuməti bu qatili mühakimə etməmişdi, ancaq indiki hökumətin onu ittiham etməsi gözlənilir. Bu qatil qəzetlərə verdiyi müsahibələrdə Fransa uğrunda könüllü savaşmaq istədiyini bildirmişdi. Adolf Hitler alman

ataşesinin öldürülməsini irqçi sui-qəsd olaraq xarakterizə etmişdi və Almaniyadakı yəhudilərə 400.000.000 dollar məbləğində təzminat cəzası kəsmişdi.

Yəhudilər Rusiya dövlətini ələ keçirəndən sonra 3.000.000 xristian ziyalısını qətlə yetirmiş, 20.000.000-dan çox xristianı aclıqla tələf etmişdilər. Yəhudi Bela Kuhn (Aaron Cohn) macar hökumətinin başına keçəndən sonra ilk işi yuxarı pillələrdə oturan 20.000 xristianı öldürmək olmuşdu. Güman edilir ki, onun 133 günlük hakimiyyəti ərzində 700.000 macar öldürülüb.

Buna bənzər hallar Almaniyada da baş verib. Dövlətin yəhudilər tərəfindən idarə olunduğu müddətdə 4.000-5.000 xristian alman ziyalısı qətlə yetirilib. Bu cinayətlər yəhudi protokollarına, Talmud təliminə və kommunist məqsədlərinə tam uyğun gəlir. Talmudda yəhudilərə "Yəhudi olmayanların həyatları yəhudilərə məxsusdur" deyilir. Protokollarda isə ölümün labüd olduğu və yəhudi məqsədlərinə qarşı çıxanların vaxtsız ölümlərinin faydalı olduğu söylənilir.

Çox təəssüf ki, yəhudilər Hz. Musanın qayıdışını gözləmədən keçmişdə sitayiş etdikləri "Qızıl Dana" ilə birgə pulu da özlərinə tanrı seçmişdilər. Yəhudilər yaşadıqları ölkələrdə həmişə özlərini digər vətəndaşlardan daha üstün tuturlar, onları aldatmağı adətə çeviriblər. Müasir yəhudilər əcdadlarının əksər xüsusiyyətlərini götürüblər. Yəhudilərin mədəniyyəti yox səviyyəsindədir. Hər bir yəhudi son ana qədər eqoist, bədniyyət olaraq qalır.

Yuxarıda sadalanan və sadalanmayan cinayətləri sübut etmək çox çətindir; xüsusilə onlar "Qardaşlarımızdan başqa heç kimin xəbəri olmayacaq. Qurbanlar onlara verilən edam cəzasının fərqinə varmayacaqlar, əksinə, elə biləcəklər ki, təbii səbəblərdən ölürlər!" prinsipi ilə törədilibsə, nəsə isbat eləmək, demək olar ki, qeyri-mümkündür. Bu prinsip

sayəsində nazir Hardinq və Amerikadakı yəhudi nəzarəti əleyhinə tənqidləri ilə tanınan kor Minnesot senatoru Şallın ölüm səbəbləri açılmamış qaldı. Senator piyada yol gedərkən bir maşın tərəfindən vurulmuş və cinayəti törədənləri tapmaq mümkün olmamışdı. "Yeni iş" layihəsinin qatı tənqidçisi senator Bronson Catting isə təyyarə qəzasında dünyasını dəyişmişdi. Təyyarənin qəsdən qəzaya uğradıldığı fərziyyəsi ilə bağlı istintaq aparılmış, lakin heç bir nəticə əldə edilməmişdi. Hələ yəhudi təsirinin zəif olduğu dövrlərdə, yəni Amerika Vətəndaş müharibəsindən əvvəl 90 il ərzində Amerikanın heç bir nazirinə sui-qəsd olunmayıb. Vətəndaş müharibəsindən sonra 75 il ərzində isə 4 nazir qətlə yetirilib. Nazir Linkoln yəhudi Boots tərəfindən, nazir Qarfild mənşəyi məlum olmayan Ças Yulis Qoutau tərəfindən, nazir MacKenni yəhudi Leon Ksolqos tərəfindən qətlə yetirilib və ən son nazir Hardinq qəflətən şübhəli şəkildə dünyasını dəyişib. Vətəndaş müharibəsindən sonra yəhudilər Vudro Vilson və Franklin D.Ruzveltin seçki kampaniyalarını dəstəkləyiblər. Yəhudilər seçki yarışında Demokrat partiyasını təmsil edən üç namizəddən ikisinə böyük maddi yardım göstəriblər. Respublikaçılardan isə Hover və Kulicin başqa kimləri dəstəklədikləri məlum deyil. Bu dövrdə seçilən digər beş respublikaçı nazirdən üçü sui-qəsd qurbanı olub.

Bəlkə, bu ölümlərin heç biri o gizli təşkilatın əməlləri deyil, sadəcə, təsadüfdür, ancaq "yəhudilərin işini çətinləşdirən" senator Hoy Lonqun Luiziana Məclisində vurularaq öldürülməsində yəhudilərin əlinin olduğunu hamı bilir. Hoy Lonqun yaxın dostu Luiziana qubernatoru bu cinayəti araşdırarkən qəflətən "təbii səbəblərlə" dünyasını dəyişmişdi.

Senator Lonqun sağlığında yəhudilər tərəfindən idarə olunan federal hökumət Luiziana ştatına maddi yardım

ayırmaqdan imtina edirdi, lakin o öldükdən sonra pul kranları axıra qədər açıldı.

Hətta siyasi çevrələrdə bu səxavətli yardıma "Luiziananın ikinci dəfə alınması" adı verilmişdi. Lonqun ölümündən əvvəl xəzinə naziri Sol Veys və onun yaxın əhatəsi haqqında bir neçə cinayət işi açılmışdı. Amma sonra onların hamısı bağlanmışdı. Aydındır ki, kimlərsə bu insanları öz himayəsinə götürüb. Ancaq həddindən artıq rəngarəng həyat sürdüklərinə görə sonralar barələrində yenidən cinayət işi açılmış və hamısı həbs olunmuşdu.

Bu vaxta qədər mediada dəfələrlə yazılıb ki, Lonq cinayətinin səbəbi "daxili çəkişmələrdir".

Cinayətdən sonra bəzi səlahiyyətli şəxslər haqqında açılmış istintaqların bağlanması onun əvvəlcədən hazırlanmış ssenari olduğunu sübut edir.

Amerika xalqı dünya hökuməti, katolik papası və ya sion qanını daşıyan despot tərəfindən idarə olunmaq istəmir. Biz respublikaçılar və "ağlı başında" olan on iki demokrat millət vəkili sayəsində son anda Millətlər Təşkilatı adlı dünya hökumətinə qoşulmaqdan canımızı qurtara bildik. Yəhudi mediası, II Dünya müharibəsi adlandırılan bu yeni müharibənin məqsədinin Avropa birliyi qurmaq olduğunu bizə demir. Baş nazir Chamberlaində çıxışlarından birində Avropa Birləşmiş Dövlətləri layihəsindən danışmışdı. Yəhudilər İngiltərə İmperiyasının qanını son damlasına qədər içiblər, bütün koloniyalarını, xüsusilə də Hindistan və Cənubi Afrikanı istismar ediblər. Hazırda yalnız Avstraliya, Kanada və Yeni Zellandiya yəhudilərdən canını qurtara bilib. İrlandiya isə xalq qiyam qaldırana qədər yəhudilər tərəfindən istismar edilirdi. İrlandiya, Hindistan və Ərəb ölkələrinin bu müharibədə "ana vətən" İngiltərəyə köməyə gəlməməsi də diqqətdən yayınmamalıdır. Ərəblər artıq bir dəfə Fələstin məsələsində aldadılıblar və yenə aldadılmaq istəmirlər. Yəhudi mediasından öyrəndiyimizə görə fələstinli yəhudilər də müharibədə İngiltərəni dəstəkləmirlər. Yəhudilərə görə, əsgərlik kimi çirkin işləri xiristian və digər dinlərə aid insanlar görməlidilər. Yəhudilər əsgərliyə çağırılanda ya "vicdanı imtina" mexanizmindən istifadə edirlər, ya da "ehtiyat" qoşunlarına qatılırlar. Müttəffiq ordusundakı bütün "ehtiyat" bölüklər yəhudilərin əlindədir.

Bu gün Vatikan, Meksika və Çexoslovakiya kimi tarixi bağları olan ölkələr də öz gücünü qorumağa çalışır. Hazırda papalıq yəhudiləşmiş Amerika rəhbərliyini ən çox tənqid edən təşkilatların sırasında birinci yerdədir. Amerikada Detroit-lu rahib Coughlin katolik kilsəsinin tənqidi fikirlərini ən yüksək səviyyədə ifadə eləyib. Medianın yazdığına görə, Papa da Ruzvelt rəhbərliyinin tərəfdarlarının defilyasiya siyasətinə qarşı aparılan kampaniyada Coughlini dəstəkləyir. Roma imperiyası dağılandan sonra Avropanı min il katolik kilsəsi idarə eləyib. "Orta əsrlər" adı almış həmin dövrdə insanlar cahillik, yoxsulluq və batil etiqadlar içində "itib-batırdılar". Kilsə insanların maarifləndirilməsi, yaxud onlara yardım etmək məsələsində heç bir səy göstərmirdi. O ağır dövrdə katolik kilsəsi qanlı müharibələr nəticəsində idarə etdiyi xalqları itirmişdi. İndi Vatikanda katolik kilsəsi dövlət statusu daşıyır, bəzi ölkələrə səfir təyin edir, digərlərindən səfir qəbul edir. Amerika prezidenti ənənəvi diplomatiya qanunlarının əksinə çıxaraq, "United States Steel Corporation"in idarə heyətinin sədrini Vatikana səfir göndərib. Demək olar ki, bütün Avropa ölkələrində Vatikana xidmət edən "Katolik Party" adlı partiyalar var. Kilsənin daxilində fəaliyyət göstərən mütəşəkkil qruplardan biri – Yezuitlər siyasi əxlaq baxımından Yəhudi Ağsaqqallar Məclisinə çox bənzəyir. Yezuitlər Amerikada o qədər də fəal deyillər. Hazırda davam edən II Dünya müharibəsi antisemit hitlerizm ilə yəhudi imperializmi arasında baş verir. Müharibənin məqsədləri arasında Çexoslovakiya və Polşanın bərpası yoxdu. Olsa belə, onsuz da belə layihələr yəhudi imperializminə xidmət edir. Yəhudilərin Hitlerə olan qəzəbinin səbəbi sonuncunun "Qızıl Standartı"nı ləğv etməsidi. Bu qərardan sonra Almaniyanın iqtisadiyyatı güclənmiş və işsizlik aradan qalxmışdı. Almaniya II

Dünya müharibəsini qızılsız eləyir və Hitler bütün dünyaya göstərir ki, yəhudilərdən qızıl borc almadan da müharibə etmək mümkündür. Almanların müharibəni udmaqlarına az qalıb, prezident Ruzvelt isə səbirsizliklə müharibəyə qoşulmaq və yəhudiləri xilas etmək istəyir. Bu müharibənin Amerikaya heç bir dəxli yoxdur və ölkəmizdə aparılan təbliğat kampaniyaları yəhudi mediası və prezident Ruzveltin oyunlarıdır.

Hitlerin köməkçisi Dr. Cozef Gebbels 1935-ci il sentyabrın 13-də nasional-sosialistlərin Nürnberg Konqresində aşağıdakıları söyləmişdi: "Hazırda bütün dünyanın hərəkətə gəlməyinə səbəb olan adamlar hardadır? Bu ağılsızlıq kimin işidir? Bu siyasi məktəbi, sistemi Rusiyaya gətirənlər, bütün dünyaya yaymağa çalışanlar kimlərdir? Yəhudilərə qarşı apardığımız siyasət, amansız mübarizənin təməlində bu sualların cavabları dayanır. Beynəlxalq bolşevizm əslində beynəlxalq sionizmdir. Marksizmi yəhudilər icad ediblər, onun vasitəsilə son iyirmi-otuz ildə inqilablarla dünyanı qarışdıranlar da onlardır. Bu inqilabı yalnız milliyətsiz, əxlaqsız, yurdsuz-yuvasız xalqlar, bir də şeytanla ortaqlıq edənlər dəstəkləyə bilərlər".

Yuxarıdakı çıxışda səslənən hər söz həqiqətdir. Gebbels təkcə Almaniyada yox, həm də Amerikada və dünyada gedən antisemit hərəkatın da səbəblərini açıqlayıb. Yəhudilər tarix boyu Avropa və Asiyanın əksər ölkələrindən qovulublar. Bu sürgünlər Talmuddan sonra və yəhudi protokolları yazılmazdan çox-çox əvvəl də olub. Yəhudilər Fransadan iki dəfə qovulublar. İngiltərədən sürgün olunandan sonra 400 il geri qayıtmaları qadağan edilib.

Bütün bu sürgünlərin kökündə insanların yəhudilərə həmişə nifrət bəsləmələri, yaxud onlara qarşı qəddarlıq dayanmır. Səbəb yəhudilərin yüzilliklər boyu həmişə öz

məqsədlərini gerçəkləşdirmək niyyətidir. Bir dünya imperiyası qura bilmək üçün ilk növbədə ABŞ aradan qaldırılmalıdır. Amma insanların xoşbəxt, firavan yaşadıqları ölkələrdə dövləti yox etmək imkansızdır.

Yəni dünya imperiyası qurmaq üçün amerikan xalqı səfilə çevrilməli, mənəviyyatını itirməli, konstitusiyasından imtina etməlidir.

Yəhudi protokollarında təsvir olunan üsulun məqsədi amerikan xalqını sion qanı daşıyan despotun hökmranlığı altına salmaqdır.

## *Almaniyaya elan edilməmiş müharibəmiz*

*"Hamısına vəzifə vermişik. Onların hər biri məcburən düşdükləri vəziyyətdən xilas olmaq üçün əllərindən gələni edəcək. Bütün dövlətlərdə xalqlar acı çəkdikcə sülh bağlamaq üçün hər şeylərini verməyə razı olacaqlar. Amma biz quracağımız dünya dövlətini və hökumətini tanımayana qədər onlara sülh şansı veməyəcəyik".*

*9-cu protokoldan*

Almanların yəhudilərə tətbiq etdiyi maddi cəza və sürgündən sonra prezident Ruzvelt Almaniyadakı səfirimizi görüşmək adı ilə geri çağırdı. Səfir hələ də Amerikadadır. Əslində bu müharibə elanının ilk addımıdır. Hitler müharibəyə başlamağa hazır olmadığımızı bilsə də, bizimlə döyüşməmək üçün prezidentin bu hərəkətinə reaksiya vermədi.

Münhen müqaviləsi, yəhudilər və prezident Franklin D. Ruzvelt üçün əsl xəyal qırıqlığıdır. Prezident Ruzvelt alman ixracatına 25% vergi qoydu və bu vergini Almaniya Mərkəzi Bankının Nyu-York banklarında saxladığı pullardan götürərək qəzəbləndiyini göstərdi. Bunların hamısı

gizli müharibə elanıdır, halbuki Hitler bu hərəkətləri soyuqqanlılıqla qarşılayıb. Hitler Ruzveltin qərarlarına cavab olaraq, ən azından, öz səfirini geri çağıra, Amerika ixracatına vergi qoya bilərdi. Amerika ilə müharibəyə başlamaq üçün onun kifayət qədər səbəbi var, ancaq bu müharibəyə başlamamaqla Amerika prezidenti artıq məğlubiyyətə uğradır. Ruzvelt 76-cı konqresin açılışında belə demişdi:

"Kəlmələr aciz qala bilər, ancaq dünyadakı sağlam düşüncəli insanlara dəyər verməyin tək yolu müharibələr deyil. Xalqımızın hisslərini düşmənə daha təsirli üsullarla göstərə bilərik".

İndiyə qədər heç bir ölkə Almaniyanın ixrac mallarına vergi qoymayıb. Almaniyanın bizim buğdamıza, qarğıdalımıza, pambığımıza ehtiyacı yoxdur, bizim də bu məhsulları satmaq üçün Almaniya bazarına ehtiyacımız yoxdur, lakin qoyulan vergilər hər iki ölkəyə mənfi təsir göstərib. Ehtimal ki, prezident Ruzvelt ingilis və fransızlarla gizlicə hərbi müttəfiqlik edir. Senatın Hərbi İşlər Komitəsində keçirdiyi məxfi görüşdə prezident "Fransanın sərhədləri bizim də sərhədlərimizdir" deyib. Bu, İngiltərərnin rəsmi fikridir. Prezident komitədə dediklərini nə qədər inkar etsə də, istintaqı dayandırıb və komitə üzvlərinə qoyulan danışmaq qadağasını ləğv etmədi. Minnesota senatoru Landen bu komitənin üzvüdür. Landen senatdakı çıxışlarından birində "prezidentin gizli komitənin iclasında söylədikləri xalqa açıqlansa, amerikalılar şok keçirəcəklər" deyib.

İlk baxışda adama elə gəlir ki, prezident müharibə istəmir və onun qarşısını almağa çalışır. Amerika prezidenti bir dəfə radioda çıxış edərək, bir dəfə də mesajla Hitlerə "dayan" deyib. Ruzvelt mesajında öz başçılığı altında keçiriləcək dünya ölkələri konfransında onillik sülh qərarı alınmasını təklif edib. Bu mesajı göndərdiyi gün xalq qarşısında etdiyi çıxışda isə Ruzvelt Hitleri aqres-

siv və dünya sülhü üçün təhlükəli bir adam kimi təsvir eləyib. Belə çıxışdan sonra onillik sülh bağlanması üçün dünya dövlətlərinin konfransının keçirilməsi qeyri-mümkün idi. Əslində prezidentin təklifinin qəbul edilməməsini istəyirdi, buna görə də mümkün qədər kobud çıxış etdi. Bu çıxış Amerika xalqından dəstək almaq məqsədilə aparılan təbliğatın bir hissəsidir. Əslində Ruzvelt bir çox insanı aldadıb. Doroti Tompson (Levi) kimi müharibə tacirləri prezidentin çıxışını ürəkdən alqışlayırdılar. Alqışlarının səbəbi bu çıxışın sülhə deyil, müharibəyə xidmət etməsi idi. Prezidentin çıxışından nə Hitler, nə də Mussolini təsirlənmədi. Mussolini bir yazısında "Avropanının işlərinə qarışdığına görə Amerika prezidentini qınayırıq! Bu müharibənin Amerikaya heç bir dəxli yoxdu. Prezident isə konfranslara başçılıq edəcək qədər səmimiyyətə sahib deyil!" demişdi.

Mussolini demişdi ki, prezident çıxışında öz xalqını hədəf alıb və məqsədi xalqın diqqətini Amerikada hər gün artan işsizlikdən yayındırmaqdı.

Müttəfiqlər Almaniyaya müharibə elan edəndən sonra ABŞ prezidenti "ABŞ polad sənayesinin" başçısı Myron Tayloru yəhudilərin mühacirəti ilə məşğul olan komissiyaya sədr qoydu. Bu komissiyanın indiyə qədər nə iş gördüyünü bilməsək də, hələ də fəaliyyət göstərdiyi, yəhudilərə maddi kömək etdiyi və yəhudilərin gəmi-gəmi bizim torpaqlarımıza köçməyi dəqiqdir. Rusiya da daxil olmaqla hələ heç bir ölkə ABŞ kimi öz torpaqlarını yəhudilərin ixtiyarına verməyib. Cənubi Amerika ölkələrinə göndərilən bütün yəhudilər geri qaytarılıblar. Ancaq ABŞ yəhudilərə gəmilər göndərir və indiyə qədər onların yerləşməsinə 50.000.000 dollar xərcləyib. Onsuz da zəif olan mühacirət qanunlarını heçə sayan prezident və nazir missis Perkins yəhudilərə heç bir məhdudiyyət

qoymadan amerikan torpaqlarına qəbul edirlər. Hazırda ABŞ-a gündə 3.000 yəhudi gəlir. Mühacirət qanunları hər millətə, cinsə tətbiq edildiyi halda yəhudilərə aid edilmir. Qanunlarımız yəhudiliyi millət yox, din kimi qəbul etdiyinə görə ABŞ-a gələn insanlar arasında yəhudilərə üstünlük verilir. Halbuki yəhudilər heç vaxt yaşadıqları ölkələrin insanları ilə evlənmirlər, özlərini fərqli millət kimi qoruyurlar. Bu gün Amerikada Fransada, İngiltərədə, Fələstində olduğundan çox yəhudi var. Bütün dünyada on beş milyon yəhudi olduğu güman edilir və onların yarısı, yəni yeddi-səkkiz milyonu bizim ölkəmizdə yaşayır. Deyilənlərə görə, Konstitusiya Məsləhət Məclisində general Vaşinqton və Benjamin Franklin yəhudilərin Amerikaya mühacirətinə qarşı çıxıblar. Konstitusiya Məsləhət Məclisinin Cənubi Karolina təmsilçisi Çarles Pinkneyin xatirələri də bunu təsdiqləyir. Yəhudilər onların doğruluğunu qəbul etməsələr də, xatirələrdən alınan aşağıdakı hissə qurucularımızın dünyagörüşünü və müdrikliyini göstərir.

Franklin: "Bəylər, gənc ölkəmizi yəhudilərin təsirindən, mühacirətindən qorumaq məsələsində general Vaşinqtonla razıyam. Yəhudilərin çox olduğu ölkələrdə əxlaqı pozduqları, ticarəti ələ keçirdikləri, özlərini əksəriyyətdən ayrı tutaraq assimilyasiya olmadıqları məlumdur. Bu millət məskən saldığı ölkələrdə xiristian dəyərlərini alçaldır və ölkə içində ölkə qururlar. İspaniya və Portuqaliyada olduğu kimi yəhudilər yaşadıqları ölkələri maddi cəhətdən istismar edirlər. Bəylər, yəhudilər 1.700 il bundan öncə qovulduqları Fələstinə ana vətənləri kimi baxırlar, hər zaman o torpaqlara iddia edərlər. Ancaq bu gün dünya dövlətlərinin Fələstini yəhudilərə vermək istəyinin səbəbi budurmu? Məlumunuz olsun ki, yəhudilərin ölkəmizə girməyinə izin verilsə, onlar Amerika xalqının 200 il bo-

yunca öz qanı ilə qurduğu bu ölkəni ələ keçirərək azadlığımızı təhlükəyə atacaqlar. Bu xalqı Amerikadan uzaqlaşdırmasanız, 200 il sonra nəvələriniz tarlalarda işləyəndə yəhudilər sərvətlərinə sərvət qatacaqlar və nəvələriniz məzarlarınızda sizə lənət oxuyacaq. Yəhudilər asiyalı irqdir və bundan sonra on nəsil də aramızda yaşasalar, yenə asiyalı kimi qalacaqlar. Bir leopard xalları necə silinməzdirsə, yəhudilər də eləcə öz xasiyyətlərindən qurtula bilməzlər. Yəni yəhudilərin ölkəmizə girişi konstitusiyamızla qadağan olunmalıdır".

Pinkneyin xatirələri belə davam edir:

"Cənab Franklinin sözlərinə hamımız çox təəccüb etmişdik, çünki ölkəmizdə 200 yəhudi vardı".

Bütün bunlar nəzərə alınsa, Amerika yəhudi məsələsində Almaniyanın daxili işlərinə qarışmamalıdır. II Dünya müharibəsi başlayanda Avropadakı amerikalılar dərhal öz ölkələrinə geri qayıtmağa çalışmış və onlardan 1.500-ü İngiltərənin ərazi sularında vurulan "Athenia" gəmisində həlak olmuşdu. Almanlar israrla o bölgədə sualtı qayıqlarının olmadığını deyirlər. Onsuz da Almaniyanın silah, əsgər, ya da sursat daşımayan və Amerikaya qayıdan bir gəmini atəşə tutması məntiqsizdir. O gəmi dövlətimizi Almaniyaya qarşı qoymaq istəyən ingilislər tərəfindən atəşə tutulmuşdu. Xalqa sadəcə bilməsi lazım olan şeyləri açıqladığını boynuna alan Çörçilin sözləri bu hadisədə əsassızdır. İngiltərənin baş naziri bu hadisədən I Dünya müharibəsində olduğu kimi Amerikanı müharibəyə qatmaq üçün istifadə edir.

Hadisə baş verdiyi vaxt prezident Ruzvelt, təmsilçisi Sumner Vellesi Avropaya yollayaraq guya müharibə edən ölkələri və papanı barışığa dəvət etmişdi. Bu rəsmi ziyarət haqqında gizli qalan çox şey var. Media bildirir ki, pezident müharibədəki vəziyyəti öyrənərək sülh təkliflərini ortaya

qoymağı planlaşdırırmış. Əslində bu ziyarətin arxasındakı məqsəd Amerika ordusu hazır olana qədər tərəfsizliyini qoruyaraq zaman qazanmaqdır. Mediada yazılanlara görə, prezident Mussoliniyə müharibəyə girməyəcəyini bildirmişdi. Təbii ki, prezidentin bunu necə söylədiyi və Mussolininin buna nə cavab verdiyi məlum deyil. İngilis mediası Ruzvelt Mussoliniyə "İtaliya müharibəyə qoşulsa, Amerika da savaşa girəcək" dediyini yazır. Bu hadisələrin arxasındakı əsl həqiqəti öyrənməyə imkan yoxdur, ancaq bir şey dəqiq məlumdur: prezident Ruzvelt İngiltərə tərəfindən müharibəyə qoşulmaq üçün münasib vaxt gözləyir.

Başqa bir həqiqət də var: Almaniya Amerikanı hədələyir. Almaniya indiyə qədər İngiltərənin etdiyi kimi Amerika gəmilərini müsadirə etməyib və ya Amerikaya göndərilən məktubları senzuraya məruz qoymayıb. Amerikanın tarixi boyu Almaniya bizə heç vaxt müharibə elan etmədiyi halda İngiltərə ilə iki dəfə müharibə etmişik.

## *Səfərbərlik planı*

*"Yalnız despotlar bütünü dövlət mexanizmləri arasında bərabər paylaşdıra bilərlər. Burdan da başa düşüldüyü kimi, hər hansı bir ölkəni təkcə bir halda uğurla idarə etmək mümkündür: lider bir nəfər olmalıdır. Mədəniyyət mütləq despotizmdən kənarda inkişaf edə bilməz. Mədəniyyət xalqların yox, başdakı liderin rəhbərliyi sayəsində inkişaf edir".*

*2-ci protokoldan*

Amerika hökuməti bu gün 45.000.000.000 dollarlıq daxili borcla, yoxsulluğun, işsizliyin baş alıb getdiyi ölkəmizin müharibədə iştirakına nail olmaq istəyir. Konqres müharibəyə 17 milyard dollar ayrılması təklifini təsdiqləyib. 6 mart 1939-cu ildə Cənub Dakotanın senatoru Leon

Freyzer senatdakı çıxışında belə demişdi: "Heç kim məni inandıra bilməz ki, müharibə hazırlıqları özünümüdafiə məqsədi daşıyır. Aranızda kimsə hansısa ölkənin Amerikaya hücum edəcəyini, sərhədlərimizi pozacağını bilirmi? Hazırda bütün böyük dövlətlərin başı qarışıqdır və heç bir ölkə Amerikaya hücum etməyi planlaşdırmır... Bir müddət əvvəl hökumətimizin gizli iclaslara və konfranslara qatıldığını eşitdik. Görəsən, Amerika hökuməti xalqdan xəbərsiz müharibə planları, ya da razılaşmaları hazırlayır? Kim bilir?! Onsuz da bunu bilənlər bizə heç nə deməzlər".

ABŞ Konstitusiyasına görə, Amerikanın imzalayacağı bu tip razılaşmalar senat tərəfindən təsdiqlənməlidir. Prezidentin belə razılaşmaları senata gətirmədən imzalaması onu göstərir ki, o özünü diktator hesab edir. Müharibə paktı imzalandıqdan sonra Böyük Britaniyanın kralı və kraliçası Fransa prezidentini ziyarət etdilər, sonra isə Fransa prezidenti onlara qonaq oldu.

Fransa və İngiltərədə bu səfərlərin şərəfinə verilən möhtəşəm ziyafətlər, ballar orta əsrlərin saray dəbdəbəsinə uyğun şəkildə təşkil olunmuşdu. Daha sonra ingilis kral və kraliçası Amerikaya gələrək Ağ Evdə və Hyde parkdakı iqamətgahında prezident Ruzveltə baş çəkdilər. Vaşinqton, Paris və London səyahətləri yəhudilər tərəfindən üçtərəfli müharibə paktının imzalanması üçün istifadə olundu. Bütün bunlardan əlavə, o da məlumdur ki, prezident Ruzvelt Sovet İttifaqının Finlandiyanı ələ keçirməsinə imkan yaradıb. Sovet İttifaqı Versal müqaviləsi nəticəsində itirdiyi torpaqları Finlandiyadan razılaşma yolu ilə geri almaq istəsə də, müttəfiqlər Finlandiyaya kömək edəcəklərinə dair söz verərək bu ölkəni müharibəyə təşviq ediblər. Finlandiya I Dünya müharibəsində Amerikadan aldığı borcu geri ödəməyə razı olan yeganə ölkə idi. Müttəfiqlər elə düşünürdülər ki, Amerika Finlandiyaya

görə müharibəyə qoşulacaq. Amma Finlandiyaya rəğbət bəsləməsinə baxmayaraq, Amerika bunu etmədi. Sem əmi daha müharibələrə cəlb edilməkdən bezib. Əgər Finlandiyaya yardım ediləcəyi ilə bağlı söz Amerikanı müharibəyə cəlb etmək üçün verilibsə, onda bu tələni ikinci "Ateniya" adlandıra bilərik.

Senator Freyzer yuxarıda verilən çıxışının davamında belə deyir: "Sənaye Səfərbərlik Qanununun qəbulu bizi narahat etmişdi. Bidiyimə görə, bu qanun keçmiş konqresin zamanında təklif edilmiş və böyük mübahisələrə səbəb olmuşdu. Mübahisələr nəticəsində qanunda bəzi dəyişikliklər edilsə də, biz yenə də narahatıq... Əvvəlki konqresə təşkilati tədbir kimi təklif olunmuş bu qanun müharibə olsa, Amerika prezidentinə 4.000.000 gənci silahlandırma səlahiyyəti verir... Qanunun beş il əvvəl təklif olunduğunu düşünsək, hökumətimizin uzun müddətdir ki, müharibə planları qurduğu məlum olur. "Sənaye Səfərbərlik planı 1936" adlanan bu qanun müharibə baş versə, Təmsilçilər Məclisi və senatdan tez-tələsik keçiriləcək və ağlagəlməz fəaliyyətlərə şərait yaradacaq.

Buqanunprezidentəmüharibəvaxtı"hərcürmal,məhsul, qida, mülk və haqqa əl qoymaq hüququnun verilməsi, bütün mal, xidmət, mülk, haqq, qida və məhsullarında, dövlət və ya insanlar arasında qiymət və kirayələrin aşağı və yuxarı limitlərinin müəyyənləşdirilməsi" hüququ verir. Həmçinin prezident bu qanuna əsasən lazım bildiyi bütün ticarət, məhsul, ixracat və idxalat işlərinə limit, yaxud qadağa qoya bilər, müharibə üçün lazım olan hər cür mal, mülk, xidmət və ya məhsula əl qoya bilər. Bütün bu işlər Amerika prezidenti və ya onun təyin etdiyi qurumlar və insanlar tərəfindən həyata keçirilə bilər. Qanunun icrasına nəzarət edəcək şəxslər 10.000 dollar maaş alacaqlar. Əgər səlahiyyət veriləcək qurum, təşkilat və şəxslər olmasa, pre-

zident yeni qurumlar yarada, istədiyi şəxsləri başçı təyin edə və onları maaş və büdcə ilə təmin edə bilər".

Miçiqan senatoru Schafer "Sənaye Səfərbərlik planı 1936" haqqında "bu qanun demokratiya tarixində qəbul olunmuş ən əcaib qanundur" demişdi. Həqiqətən də, Amerika prezidentinə bütün amerikalılar, onların məhsulları, malı, mülkü üzərində tək hakim olmaq səlahiyyəti verən bu qanun əsl diktatorluq sənədidir. Təbii ki, qanundan istifadə hüququ prezidentdə yox, Barni Baruxa, ya başqa yəhudi müharibə sənayesi qurumunun başçısına aid olacaq. Mətbuat yazır ki, Barni Barux prezidentlə nahar yeməyində görüşüb və bir iclasda müharibə vəziyyətini müzakirə ediblər. Barux yaradılacaq Müharibə Sənaye Komitəsi haqqında bir şey deməsə də, bu vəzifəni istədiyi və alacağı dəqiqdir.

Baruxun keçmiş iş ortağı və prezidentin yaxın dostu general Haq Conson 18 aprel 1939-cu il tarixində qəzetlərdən birinə verdiyi müsahibəsində deyir: "Bu qanunla söz, mətbuat, toplantı və müraciət azadlıqları məhdudlaşdırılacaq... Müharibəyə girsək, hökumət hələ bir müddət də avtomatik olaraq başda qalmağa davam edəcək. Bütün antidemokratik hüquqlarını müharibə sayəsində qazanmış bir hökumət müharibənin bitməsini istəyər? Prezident Vudro Vilson müharibədən sonra ona verilən bütün səlahiyyətlərindən imtina etmişdi, çünki o özü də müharibəyə qarşı idi. Bəs hazırkı hökumətdən eyni şeyi gözləyə bilərik? Bu hökumət 4 mart 1933-cü il tarixindən etibarən ona verilən hansı fövqəladə səlahiyyətdən imtina edib? Müharibədə kimin qalib gəlməyindən asılı olmayaraq, müharibəyə qoşulan bütün ölkələrdə demokratiya çox böyük zərər görəcək. Dünyada demokratiyanı qorumağın tək yolu Amerikanı müharibədən uzaq tutmaqdır".

Almaniya dərhal qələbə çalmasa, prezidentin Amerikanı müharibəyə qatacağı dəqiqdir. Hətta müharibədən uzaq qalsaq da, yəhudilərin istədikləri vaxt Yaponiyanı qızışdırıb bizə qarşı ayağa qaldırması mümkündür. Yəhudilər israrla müharibənin labüd olduğunu deyirlər. Amerikanı müharibəyə qatmaq üçün kifayət qədər təxribat edilir və əgər müharibəyə qatılsaq, Ruzveltin üçüncü dəfə prezident seçilib bizə diktatorluq edəcəyinə şübhə yoxdur. Bu diktatorluqda prezidentə Baruxla Morqantau kömək edəcəklər. Amerika azadlıq və respublika anlayışlarını itirmək üzrədir. Hələ heç vaxt xalqın əhval-ruhiyyəsi bu qədər pis olmayıb. Aclığın geniş vüsət aldığı bir ölkədən vətənpərvərlik gözlənilə bilməz. Kəndli və fəhlələrin sədəqə iqtisadiyyatına öyrəşdirildiyi, varlıların isə öz sərvətləri ucbatından qorxağa çevrildiyi bir ölkədə demokratiya ola bilməz.

Konqresdə qəbul olunan Əyalət Milis Qanununa əsasən, 396.000 nəfər əsgərliyə çağırılıb. Bu qanuna əsasən, əsgərliyə çağırılanlar beşillik təlimdən sonra prezidentin onları göndərdiyi torpaqlarda vuruşacaqlar. Halbuki əsgərliyə çağırılanlar öz əyalətlərini qorumaq üçün orduya qatılıblar.

17 avqust 1940-cı il tarixində prezident Ruzvelt, Rotşild ailəsi və yəhudi mediası "Burke-Wadsword qanunu" adlandırılan "Əsgərliyə Çağırılma" qanununun qəbul olunması təklifini dəstəklədilər. Bu təklif Morqan vəkilləri ilə birlikdə "Root, Çark, Bukner&Ballentine" vəkillik bürosunda Qrinvil Klark tərəfindən hazırlanmışdı. Məlumdur ki, 23 may 1940-cı il tarixində Morqan vəkillərindən Henri L. Stimsom, (müharibə nazirimiz və "Kuhn, Loeb&Co"-nun vəkili) Julius Ochs Adler və bir neçə nəfər Nyu-York Harvard klubuna toplaşaraq "Əsgərliyə Çağırılma" qanununu müzakirə etmiş, iyunun 3-də isə əsgərə çağırı-

lacaq şəxslər üçün yarım milyon dollara qədər pul yığmışdılar. Kimlərin pul verdiyi qeyd olunmasa da, böyük hissəsinin Rotşild ailəsinə məxsus "Morgan&Co" və "Kuhn, Loeb&Co" səhmdar bankları tərəfindən qoyulduğu məlumdur. Bu pul nə üçün yığılıb? Yəhudi mediasının təbliğat üçün pula ehtiyacı yoxdur, onsuz da yəhudilər "Əsgərliyə Çağırılma" qanununu dəstəkləyirlər. Bu qanun təklifinin konqresə gətirilməsi üçün beş min dollar da kifayət edir. Tutaq ki, on min dollar da senatorlara göndərilən teleqraflara, on beş min dollar isə Qallop ictimai araşdırması üçün sərf olunub. İctimai araşdırmaların nəticələrinə əsasən, amerikalıların 67%i "Əsgərliyə Çağırılma" qanununu dəstəkləyir. Belə bir nəticənin səhvsiz, ya hiyləsiz alındığını düşünmək qeyri-mümkündür. Qallop referendumu yəhudilərin Amerikada oynadıqları ən böyük oyunlardan biridir. Bu ictimai araşdırmanın nəticələri hər dəfə yəhudi mediasında ön səhifələrdə yer alır. İctimai sorğu Amerika xalqını maraqlandıran hər mövzuda aparılıb. Nəticələr rəsmi açıqlanana qədər heç kim sorğuda iştirak etdiyini bilmirdi və səsvermədə iştirak edən bir nəfər belə tapa bilməzsiniz.

Nə isə. Hər halda bütün xərcləmələrdən sonra 220.000 dollar qalır. Bu pul kimə ödənilib? Vətən xainlərinin məqsədləri aydındır, ancaq bu pulun kimə rüşvət verildiyi məlum deyil. Ancaq bütün hallarda 12.000.000 əsgərin həyatının 250.000 dollara satılması çox acıdır. Bu, Hz. İsanın bir neçə gümüş pula romalılara satılmağına bənzəyir. Hər iki hadisədə pul ödəyənlər yəhudilərdir. İlk "Əsgərliyə Çağırılma" qanun layihəsi senator Klark tərəfindən hazırlanmışdı və 18-65 yaş arasında olan 42.000.000 amerikalı kişini əhatə edir. Prezident bu böyük rəqəmdən 4.000.000-nun dərhal səfərbərliyə alınmasına qərar verib. Senatın Hərbi İşlər üzrə Komissiyası əsgərlik yaşını 21-31 arası

müəyyənləşdirib. Bu yaş dövründəki 12.000.000 kişi on il ərzində təlim alaraq əsgərliyə götürüləcək. İldə 1.000.000 nəfərin bu mərhələdən keçməsi ölkəmizə il ərzində 1.000.000.000 dollara başa gələcək. İndiyə qədər ABŞ-da sadəcə qısa müddətli məcburi əsgərliyə çağırılma halları olub. İndiyə qədər Amerikanın bütün silahlı qüvvələri yalnız könüllülərdən ibarət olub. Hələ də müharibə edən Kanadada isə əsgərlik təlimi müddəti bizdəki kimi on iki ay yox, cəmi bir aydır. Həmişə prezident Ruzvelti dəstəkləyən senator Norris qanun haqqında belə deyir: "Bu qanun ilə ölkəmizin tarixi inkişafı lap başdan ən radikal mərhələyə qədəm qoyur. Cənab prezident, bu qanun qəbul ediləndən sonra bizi həmişə mübarizə apardığımız diktator rejimlərindən birinə çevirəcək. Sülh vaxtı məcburi əsgərlik bizə diktator rejimindən başqa heç nə verə bilməz".

Senator Norris kimi Ruzvelt tərəfdarının, nəhayət ki, bizi gözləyən təhlükəni görməyi ümidverici haldır. Diktatorluq Henri L. Stimsom, Frank Knoks, "Kuhn, Loeb&Co", "Morqan&Co" və Yulius Oks Adler kimi yəhudilərin pul hesabına gerçəkləşdirmək istədikləri xəyaldır. Amerika prezidenti də qanunu Konqresə göndərməklə, əlindəki bütün gücü qanunun qəbul olunması üçün istifadə etməklə bu xəyanətə ortaq olur.

## Bölüm II : Amerikanın ələ keçirilməsi

### *Franklin D. Ruzvelt*

*"Planımızın uğurla həyata keçməsi üçün dəstəkləyəcəyimiz liderlərin keçmişi mütləq ləkəli olmalıdır. Bu liderlər sirlərini gizli saxlamaq müqabilində bizi dəstəkləyər və məqsədlərimizə xidmət edərlər. İnsan xarakteri əlində olan imtiyazları, avantajı, qüruru, gücü və pulu itirmək istəməz".*

*10-cu protokoldan*

"Sözlərimiz yox, əməllərimiz səmimiyyətimizin göstəricisidir".

– Ruzveltin 19 oktyabr 1937-ci il tarixli çıxışından. Bir insanın xarakteri dostları və əməlləri ilə bəlli olar. Ümumi götürsək, insan dostlarından o qədər də fərqlənmir. İnsana əməllərinə görə qiymət verilməlidir. İnsanın niyyəti və qabiliyyəti onun dəyərini göstərmir.

Bu hissədə prezident və onun dostlarını araşdıracağıq. Prezidentin əməlləri isə növbəti bölmələrdə ətraflı şəkildə açıqlanacaq. Mən prezidenti şəxsən tanımasam da, sui-qəsdin qurbanı olan Huey P. Lonq prezident və dostlarını yaxından tanıyırdı. Bu qorxmaz və cəsur siyasətçinin dedikləri qismən doğru sayıla bilər. Huey P. Long Ruzveltin ən yaxın adamlarından biri idi. İlk dəfə prezident seçiləndə ona böyük dəstək verdiyi hamıya məlumdur.

Cənab Lonq prezident tərəfindən aldadıldığını sonralar başa düşəcəkdi.

Hoy P. Lonq deyir ki, Ruzvelt kabineti defilyasiyaçı Huver hökumətinin davamçısıdır. Prezidenti "yalançı və alçaq" adlandıran Huey P. Lonq senatın istintaq komissiyasına ondan şikayət etmiş, lakin şikayəti nəzərə alınmamışdı. Hoy P. Lonqun fikrincə, ölkəni əslində Ruzveltin "kölgə kabineti" idarə edir, onun razılığı olmadan heç bir addım atılmır. Aşağıda "kölgə kabineti" üzvlərinin adları verilib:

Barni Barux – yəhudi, Nyu-York birja fırıldaqçısı;

Feliks Frankfurter – yəhudi, Nyu-York hakimi və Amerika Konstitusiya Məhkəməsinin üzvü;

Henri Morqantau – yəhudi, xəzinə naziri;

Sem Rozeman – yəhudi, Nyu-York hakimi, Ruzveltin tərcümeyi-halını qələmə alan şəxs;

Ben Cohen – yəhudi, nyu-yorklu vəkil;

Harri İ. Hopkins – nə işlə məşğul olduğu məlum deyil.

Bunların hamısı defilyasiya siyasətinin və müharibənin tərəfdarları, antiamerika əhval-ruhiyyəli adamlardır. Baruxu prezidentin köməkçisi də adlandıra bilərik. O, "kölgə kabineti"nin ən fəal və ən təhlükəli üzvüdür. Ruzvelt birinci dəfə prezident seçiləndə Barux Ağ Evdə özü üçün ofis istəmiş, lakin sonra bu istəyindən vaz keçirdilmişdi.

Senator Lonq Barux haqqında belə deyir:

"Ov zamanı quşlar vurulacaqlarını hiss edəndə qaçırlar. Bəzi quşlar bu işdə o qədər mahirdirlər ki, hətta ən təcrübəli ovçular belə onları vura bilmirlər". Barux da elə quşlardandı. Huverin dövründə hökumətin içində prezidentin pərişan olmasını izləyən bu adam istintaqa cəlb olunacağını eşidən kimi Kaliforniyaya, palma ağaclarının altına qaçmışdı. Sonrakı hadisələri ordan "Neronun yandırdığı Romanı izlədiyi" kimi izləyən Baruxun

yerinə böyük qardaşı Ağ Evə gəlib özünü prezidentə sırımışdı. Nə qədər ki Amerikada prezidentlər var, Barux ailəsi istismara davam edəcək. Barux qardaşları bunu yaxşı bilirlər. Amma çox təəssüf ki, Baruxlara verilən imtiyazlar onları qorumaq tapşırığı almış iki-üç milyon amerikalı əsgərə verilmir". (75-ci Konqres qeydləri, səhifə 7592)

Böyük qardaş Barux I Dünya müharibəsində Amerikanın müharibə sənayesinə başçılıq edirdi və ölkənin sənaye diktatoru olmağın verdiyi bütün hüquqlardan istifadə edirdi. İndi bu yəhudi həm siyasi, həm də iqtisadi diktator olmaq istəyir. Hazırda xəzinə naziri olması gözlənilən Barux bu vəzifənin Morqantauya verilməsini istəyir. O özünü daha yüksək mövqedə təsəvvür edir. Belə güman olunur ki, Barux Rotşild ailəsinin siyasi təmsilçisidir. Morqantau kabinetdə ən nüfuzlu mövqe hesab olunan xəzinə naziri kreslosunda oturub. Vyanalı yəhudi Feliks Frankfurter isə prezident tərəfindən Xarici İşlər Nazirliyi yanında Amerika Konstitusiya Məhkəməsinə üzv təyin edilib. General Hug Conson bu adamı "Amerikanın ən güclü insanı" adlandırır və bildirir ki, Frankfurter dövlətin ən yüksək 125 vəzifəsinə öz adamlarını təyin edib. Yəhudi Ben Kohen də onlardan biridir. Onun vəzifəsi "islahat qanunları" hazırlamaqdır. Kohenin hazırladığı qanunlar prezident tərəfindən təsdiqlənir və Konqresə təklif olunur, ümumilikdə bir-iki yüngül dəyişikliklə qəbul olunur.

Hitlerin öz ölkəsini yəhudi boyunduruğundan xilas etməyi yəhudiləri təşvişə salmış və bütün dünyada irqlərin bərabərliyi təbliğatı başladılmışdı. Əslində kommunistlər və yəhudilər tərəfindən uydurulmuş bərabərlik ideologiyası bütün dünyada xalqlara "yedirilməyə" çalışılır.

Bu axının ölkəmizdəki təmsilçisi olan Eleanor Ruzvelt zəncilərlə münasibətləri tənzimləməyə çalışır. Xristianlığı qəbul etmiş yəhudi ailəsində doğulduğu deyilən prezident

Ruzvelt bununla bağlı verilən suallara "Bunda nə var? Yəhudilər də bizim kimi insandı!" deyə cavab vermişdi. Əslində prezidentin yəhudiliyindən daha çox kommunist olub-olmadığı vacibdir. Tanınmış pedaqoq Dr. Virtun qəzetlərdən birinə verdiyi bəyanatda "kommunist diktaturasının" müzakirə olunduğu məxfi iclasa dəvət olunduğunu demiş, bununla da aləm bir-birinə dəymişdi. Bəyanat verilən vaxt dostları ilə şimal sahillərində balıq tutan prezident geri qayıdaraq elə qatar stansiyasında özünə ən yaxın senatorlarla görüşərək dərhal bir komissiya yaratmış və Dr. Virtun dediklərinin araşdırılmasını istəmişdi. Görüntü xarakteri daşıyan komissiya istintaq zamanı heç bir dəlil tapmasa da, Dies Komissiyasının gizli hesabatlarında 700-dən çox federal işçinin "Sülh və demokratiya cəbhəsi" adı altında kommunist fəaliyyət göstərdiyi yazılırdı.

Dies komissiyasının başçısı, konqres üzvü Martin Diesin bu barədə dedikləri: "Amerika Sülh və Demokratiya Cəbhəsi Moskvada düşünülmüş, Amsterdamda qurulmuş və fransız kommunist Henri Barbussa tərəfindən Amerikaya gətirilmiş bir təşkilatdır. Təşkilatın məqsədi kommunist partiyasının üzvlərinin sayını artırmaq, Amerika müdafiə sənayesini sabotaj etməkdir. Bu təşkilat Amerikada sovetlərin casus təşkilatına adamlar hazırlayır". (Konqres protokolları, 31 oktyabr 1939) Dr. Virtun bəyanatından sonra Konqresin apardığı istintaqda bəhs edilən həqiqətin keçirildiyi, Virtun ora dəvət olunduğu və iclasda "diktatorluq" idarəetmə üsulunun müzakirə edildiyi təsdiqlənib. Dies Komissiyasının istintaqında prezidentin həyat yoldaşı missis Ruzveltin istintaqa cəlb olunanlarla birgə komissiyanın önünə çıxması Amerikada böyük qalmaqala səbəb olmuşdu. Missis Ruzveltin bu hərəkətinin iki səbəbi ola bilər: aparılan istintaqa etiraz əlaməti olaraq komissiya üzvlərini narahat etmək,

yaxud istintaqa cəlb olunan kommunistlərə rəğbətini və dəstəyini göstərmək. Missis Ruzveltin kommunistlərə və yəhudilərə rəğbəti göz qabağında idi. O, 31 dekabr 1938-ci il tarixində "Liberty Magazine" jurnalına verdiyi müsahibədə "Yəhudilər xristianlardan ağıllıdırlar, buna görə də yəhudiləri qısqanırlar. Yəhudilər haqsızlığa məruz qalırlar!" demişdi.

## *Qızıllar*

*"Mason qardaşlığı" prinsiplərimizə uyğun olaraq, özümüzü əzilən fəhlələrin tərəfindəymiş kimi göstərib onları sosialistlərin, anarxistlərin, kommunistlərin sıralarına qatmalıyıq. Hüquqi sistemlərin dəstəklədiyi aristokratiya işçi təbəqənin daha məhsuldar olması üçün onların sağlam olmağını, yaxşı qayğı görməyini, güclü olmalarını istəyir, bizim hədəfimiz bunun tam əksidir".*

*3-cü protokoldan*

Yəhudi problemini yaxşı bilmədən kommunizm və bolşevizmi anlamaq çətindir, onlar bank və pul sistemlərinin nəticələridir. Kommunizmin qurucuları – Karl Marks və Fridrix Engels də yəhudi idilər. Dünyanı ələ keçirməyi planlaşdıran kommunizm Yəhudi Ağsaqqal Məclisi üçün qızıl qədər vacib faktordur. Bankçılıq, pul sistemlərindən yoxsulluğu, sosial partlayışları alovlandırmaq üçün istifadə olunur və beləcə xalqlar kommunizmə sürüklənirlər.

Lamontailəsininhekayəsiyuxarıdabəhsolunanlarabariz nümunədir. Ata Thos. V.Lamont "J.P.Morgan&Company" şirkətinin ortağı idi. Eyni zamanda Brüssel Konfransında Amerika dövlətini təmsil edib. Ata Lamont ömrünü dünya "Qızıl Standartları"na həsr etdiyi halda, oğlu Korlis Lamont məşhur kommunist idi. Varburq və Şiffin Trotskiyə maddi dəstək verməsi isə bu ironiyaya başqa bir nümunədir.

Əslində kommunist hərəkatı, yəhudi sərmayəsi olmadan mövcud ola bilməz.

Kommunizmin Amerikaya sıçraması ABŞ-ın Sovet İttifaqını rəsmən tanıması ilə başladı. Mediaya sızan məlumatlara görə, Sovetlər söz veriblərmiş ki, ABŞ-da kommunizmi yaymağa çalışmayacaqlar. Hökumətimiz Sovet İttifaqını rəsmən tanıdığı dövrdə dünyanın bir çox dövlətləri III İnternasionalı dəstəklədiyinə görə onu tanımırdı. Sovet İttifaqı ilə ABŞ arasındakı müqavilədə Franklin Ruzveltin və yəhudi mason Litvinovun (Finkelstayn) imzaları var. İlk baxışda ölkələrarası ticarətin həcmini artırmağı qarşıya məqsəd qoyan bu razılaşma imzalandıqdan sonra ticarətin həcmi yox, Amerika hökumətinin kabinetindəki yəhudi nazirlərin sayı artmışdı. Prezident Ruzveltin almanlarla müharibə etmək istəmədiyinə görə qubernator Vudrinqi Müharibə Nazirliyindəki vəzifəsindən istefaya göndərərək onun yerinə nyu-yorklu Henri L. Stimsonu təyin etmişdi. Ruzveltin kabinetindəki yəhudi nazirlər aşağıdakılardır:

xəzinə naziri: Henri Morqantau, Nyu-York, yəhudi;

müharibə naziri: Henri L. Stimson, Nyu York, "Kuhn, Loeb&Co" şirkətinin (Rotşild bankı) vəkili, yəhudi;

dəniz qüvvələri naziri: Frank Knox, Çikaqo, "Daily News" qəzetinin naşiri ( Rotşild qəzeti ), yəhudi;

daxili işlər naziri: Herold F. İkes, Çikaqo, "Kommunist Amerika Sivil Azadlıqlar Sindikatı"nın üzvü.

Amerika kabinetində xalqın müxtəlif təbəqələrindən olan təmsilçilər ola bilərdi, ancaq bunun yerinə Ruzvelt kabinetində yalnız yəhudilərin təmsilinə önəm verilmişdi. Üstəlik kabinetdə Nyu-York və Çikaqo istisna olmaqla başqa yerdən nazir yoxdur. Belə kabinetlə Amerikanın II Dünya müharibəsindən uzaq qalmaq şansı yoxdur. Amerikanın müharibəyə qatılaraq xilas etmək istədiyi xalq isə ingilislər yox, Avropa yəhudiləridir.

Vaşinqtonda D.C.də rəsmi dairələrdə işləyən 18.000 yəhudi arasında ən mühüm şəxs prezidentin Konstitusiya Məhkəməsinə üzv təyin etdiyi Feliks Frankfurterdir. Bu adam həm də kommunist "Amerika Sivil Azadlıqlar Sindikatı"nın liderlərindəndir.

Aşağıdakı "Amerika Sivil Azadlıqlar Sindikatı" haqqında məlumatlar "Birləşmiş Mədən İşçiləri Sindikatı" ilə bağlı aparılan araşdırma zamanı əldə olunub: "Amerikanın intellektual təbəqəsi arasında geniş yayılmış, söz, mətbuat, toplanmaq azadlığını dəstəkləyən Amerika Sivil Azadlıqlar Sindikatı mərkəzi Nyu-Yorkda yerləşən Amerika kommunist hərəkatının əsas sütunudur. Sindikat müharibə qanunlarına əsasən hələ də həbsdə saxlanılan kommunist agentlərin azad olunması və bolşevik təbliğatı ilə məşğul olur".

Oxuduğunuz məlumat Dies Komissiyasına verilən ifadələrdən götürülüb. Sivil Azadlıqlar hərəkatının başçısı Rocer Bolduin Dies Kommissiyasına demişdi ki, Amerika hökumətini zor gücünə də olsa, devirəcəklər. Məlumdu ki, Feliks Frankfurter və Herold İckes bu təşkilatın üzvləridirlər və təşkilat, Kommunist Partiyasının hüquq qolunu təşkil edən "Beynəlxalq İşçi Hüquqlarını Müdafiə Təşkilatı"nı dəstəkləyir. "Beynəlxalq İşçi Hüquqlarını Müdafiə Təşkilatı" Cənubi Karolinada polis qatillərinin müdafiəsini öz üzərlərinə götürərək məşhurlaşıb. Yəhudi mediası həmin qatilləri "azadlıq carçıları" kimi qələmə vermişdi.

Dies Komissiyası 3 yanvar 1940-cı il tarixli hesabatında aşağıdakıları bildirir: "Amerika Sülh və Demokratiya Birliyinin Vaşinqton, D.C.də baş tutan iclasının protokollarında rəsmi qurumlara təşkilatlanma sərəncamı verildiyi yazılıb. Amerika Sülh və Demokratiya Birliyi kommunist partiyası tərəfindən maliyyələşdirilir". Aşağıda Kommu-

nist Partiyasının, Amerika Mədən İşçiləri Sindikatını araşdırmaq üçün təşkil olunan xüsusi komissiya tərəfindən ələ keçirilən proqramından bir hissə verilib:

- Bütün federal və əyalət hökumətlərinin devrilməsi və konstitusiya idarəsinin süqutu.
- Sovet Amerikasının ölkədə ən yüksək qurum halına gətirilməsi və III Kommunist İnternasionala birləşdirilməsi.
- Bütün sosial, iqtisadi və siyasi qurumların ləğv olunması.
- Bütün sindikatların ələ keçirilərək vahid sindikat altında birləşdirilməsi.

Məlumdur ki,Amerikadakı inqilabçı liderlər Amerika İşçi Federasiyasına nəzarəti ələ keçirməyə çalışırlar. Amerikadakı kiçik sindikatların bütün sahələrdə vahid sindikat yaratmaq məqsədilə bir yerdə toplanma səyləri davam edir". (68-ci konqres sənədləri, senat protokolları N.14, səhifə 2-6.)

İnqilabçı liderlərdən Ezra Çis Dies Komissiyasına verdiyi ifadəsində bildirib ki, Amerikadakı sindikatları böyük və vahid sindikat altında toplamaqda məqsəd müharibə əsnasında bütün ölkədə tətil elan edərək Amerikada inqilab yaratmaq idi.

## *Dies Komissiyasının hesabatı*

*"Gözəgörünməz gücə kim qalib gələ bilər? Bizim gücümüz gözəgörünməzdir. Nə qədər ki xristian mason təşkilatları bizə xidmət edir, gücümüz hər zaman gözəgörünməz olacaq, hətta biz zəfər çalanda belə insanlar bunu görməyəcəklər".*

*4-cü protokoldan*

Amerika Təmsilçilər Məclisi, antiamerikan hərəkatları araşdırmaq məqsədilə Dies Komissiyası adlı qurum yaradıb. Komissiyanın üzvləri aşağıdakılardır:

Martin Dies – prezident, (Texas);
Joe Starns – (Alabama);
Con J. Dempsi – (New Mexico);
Cerri Vooris – (California);
Cas E. Casi – (Massachusetts);
N. M. Mason – (İllionis);
J. Parnel Tomas – (New Jersey).

Siyahıdakı ilk dörd nəfər Demokrat partiyasının, digərləri isə Respublikaçılar partiyasının üzvləridir. Komissiya ən birinci nasistlərin Amerikadakı fəaliyyətini araşdırıb. Komissiyanın fikrincə, "Alman-Amerikan Konfederasiyası"nın alman hökuməti ilə əlaqəsi var.

Fritz Kuhn bu konfederasiyanın üzvlərinin sayının 20.000-25.000, Ədliyyə Nazirliyi isə bu rəqəmin 1937-ci ildə 6.500 olduğunu deyir. Həmçinin komissiya Amerikada 10.000 üzvdən ibarət "Amerika İtaliya Qara Köynəklilər Alayı"nın fəaliyyət göstərdiyini də bildirir. Dies Komissiyası Alman-Amerika Konfederasiyasının xarici dövlətin casus təşkilatı olduğunu deyir. Dies Komissiyası Amerikadakı kommunist təşkilatlarını araşdırmağa başlayanda yəhudi mediası, elə prezident də buna sərt reaksiya verdi, hətta komissiyanın bağlanma təhlükəsi yarandı. Amerikan Qızıl Briqadaları ilə bağlı araşdırmaların dayandırılması ilə başlanan Ağ Ev yəhudi mediası və Dies Komissiyası qarşıdurmasına Təmsilçilər məclisi, 320 səslə komissiyanın işini davam etdirməsinə qərar verəndən sonra son qoyuldu.

Dies Komissiyası kommunistlərin fəaliyyətilə bağlı araşdırmaları haqqında qısa şəkildə bunları deyir:

"Kommunizmin dünya miqyasında inqilabçı, siyasi axın olduğu, sosialist respublikaların Sovet İttifaqı altında birləşmək istədiyi müəyyənləşdirilib. Kommunist etik inqilabı məqbul sayır, bir zamanlar "Sovetlər İttifaqını

müdafiə" məqsədilə yaradılmış bu hərəkat bu gün sovet rejimini digər ölkələrdə yaymağı planlaşdırır. Araşdırmalar nəticəsində müəyyənləşdirilib ki, Amerikada da proletar diktaturası qurulması məqsədi güdülür. Məqsədinə çatarsa, fərdi azadlıqları ortadan qaldırmaq istəyən bu siyasi hərəkat Amerikada guya həmişə fərdi azadlıqları müdafiə edir... (76. Konqres sənədləri, Təmsilçilər məclisinin protokolları, səhifə 26-29) "Kommunist hərəkatı Amerika hökumətinin içinə sızıb. Bəzi kommunistlər federal və əyalət sistemində vəzifə alıblar. Bu hərəkat zənciləri qızışdıraraq Amerikada vətəndaş müharibəsi və ya xalq üsyanları yaratmağa çalışır. Kommunist hərəkatı ona müxalif çıxan hər səsi iftira ataraq susdurur".

Komissiyanın tapdıqları sanki yəhudi protokollarından götürülüb. Yəhudi protokollarında göstərilən məqsədlər elə həmin protokollarda göstərilən üsullarla həyata keçirilir.

Dies Komissiyasının hesabatlarında yaazılanlardan belə çıxır ki, amerikalı kommunistlər Kommunist partiyası xaric, bir çox qurum və təşkilatlarda fəaliyyət göstərirlər. O təşkilatların, qurumların hamısı Moskva tərəfindən maliyyələşdirilir. Bu gün Amerikada inqilab ərəfəsində Rusiyada olduğundan 80 dəfə çox kommunist var. Amerikadakı mütəşəkkil kommunizm 800 müxtəlif qurum, 600 qəzet, 62 gənclər təşkilatı, 200 mədəniyyət dərnəyi, 33 müdafiə təşkilatı və 6.500.000 üzvlə yoluna davam edir və ildə 10.000.000 dollar məbləğində vəsait xərcləyir. Komissiyaya ifadə verən general Corc Van Hon Moseli Amerikanın üzləşdiyi kommunizm təhlükəsi və bunun arxasındakı yəhudi maliyyəçisini açıqlasa da, bu məlumat komissiyanın protokollarında öz əksini tapmayıb. Sanki gözəgörünməz bir əl komissiyanın aldığı bütün ifadələri protokollaşdırmasına imkan vermir. Komissiyanın prezidenti Martin Diesin təkrar

sədr seçilməməsi üçün aparılan kampaniyaya indiyə qədər 250.000 dollar xərclənib. Hər şeyi radio və media vasitəsilə idarə edən bu gizli əl əslində Parisdə yaşayan Jerobim Rotşild və ya yeni adı ilə desək, Corc Mandeldir.

## *Federal Rezerv sistemi*

*"Dövriyyədə olan pul miqdarı adam başına ehtiyaclar üçün nəzərdə tutulmadığından işçilərin ən vacib tələbatlarını ödəməyə qadir deyil. Halbuki pul kütləsi əhali artımına mütənasib olmalı, hətta uşaqlar da doğulduğu gündən nəzərə alınmalıdır. Pul kütləsinin təftiş olunması bütün dünya üçün çox vacibdir".*

*20-ci protokoldan*

Pul kütləsindəki dəyişikliklər və kredit sistemi Yəhudi Ağsaqqallar Məclisinin dünya iqtisadiyyatını istismar edə bilməsi üçün ən uyğun vasitələrdən biridir. Yüksək faizlər pul qazanmaq üsulu olsa da, yəhudilər bunu çox aşağı gəlir mənbəyi hesab edirlər. Pul kütləsindən istifadə olunur, varlı daha da varlanır, kasıb isə daha da kasıblaşır, güclü zəifin malını əlindən alır, böyük sərvətlər və böyük yoxsulluqlar yaradılır. Pul kütləsi sağlam olan iqtisadiyyat pul və kredit manipulyasiyasından zərər görməz, çünki bazarlardakı kreditin miqdarı pul kütləsindən asılıdır. Pul kütləsi artdıqca kreditin məbləği də artır. Təbii ki, kredit şərtləri maliyyəçi və müştərinin ehtiyacları əsasında müəyyənləşdirilir. Amma krediti geri ödəmək üçün pul olmayanda kredit sistemi fəaliyyət göstərə bilməz. Kredit sistemini tənzimləmək üçün pul kütləsinə nəzarət edən xüsusi mexanizm yaradılmasına ehtiyac var. Rotşildlər meydana çıxana qədər pul kütləsinə kral və imperatorlar nəzarət edirdi. Amerikada isə konstitusiya millətin iradəsini Konqresə verib.

Konstitusiya qəbul olunanda əyalət bankları gümüş və qızıl qarşılıqlı pul çıxardaraq pul kütləsini ödəyirdilər. Bu sistem Vətəndaş müharibəsinin sonuna qədər davam edib. Vətəndaş müharibəsindən sonra milli banklar Amerika dövlət veksellləri qarşılığında pul çıxararaq pul və kredit kütləsini tənzimləyiblər.

Rotşild ailəsinin təsirilə ümumdünya bank sisteminə nəzarət hökumətdən özəl bankirlərə keçdi. "Bank of England" dünyadakı digər mərkəz banklarına nümunə göstərilir. Federal Rezerv Sistemi qurulanda Amerika hökuməti pulçıxarma həcminin tənzimlənməsinə nəzarət etmək istəmişdi. "Federal Rezerv Sistemi" Amerika xalqının qanunla müəyyənləşmiş bankları tənzimləmə hüququnun Konqresə verilməsindən başqa bir şey deyil.

1907-ci ildə baş vermiş çaxnaşma, Nyu-York Rezerv banklarının depozitləri kommersiya banklarına geri ödəməməsilə başlamışdı. Nəticədə Rezerv bankından pul ala bilməyən kommersiya bankları müştərilərinin depozitlərini ödəyə bilməmişdi. Problemin səbəbi pul kütləsinin az artırılması və dövriyyədəki pul qıtlığı idi. Onsuz da həmin dövrdə bütün dünyada ticarətin ehtiyaclarını ödəmək üçün pul sistemlərində radikal dəyişikliklər edilməsi təklif olunurdu. Konqres dünya bank sistemini araşdırmaq üçün pul komissiyası yaratdı və Rod-Ayland senatoru Nelson V. Aldriçi komissiyaya sədr qoydu. Komissiya bir neçə dəfə Avropaya səfər etdi, iki il sonra isə heç kimin oxumadığı bir hesabat hazırladı. Bu müddətdə isə bankçılar, əkinçilər, tacirlər, fəhlələr və media bir daha qarışıqlıq və böhrana səbəb olmayacaq yeni bank sistemi istəyirdilər.

Prezident Vilsonun 1912-ci ildə aparılan seçki kampaniyasında verdiyi ən vacib vədlərdən biri də bank islahatı haqqında idi. Seçkilərdən sonra prezident Konqresə sərt bir ismarış göndərərək mövcud bank sisteminin yarar-

sızlığından söz açmış, ticarət ilə sənayenin ehtiyaclarını ödəyəcək yeni bir sistem lazım olduğunu vurğulamışdı. Həmçinin Vilson işsizlik probleminin həllindən, yüksək maaş və qiymətlərdən bəhs etmişdi. Prezidentin seçki kampaniyasındakı nitqindən və Konqresə yazdığı bu ismarışdan göründüyü kimi, o, pul və kredit kütləsini artıracaq yeni bir sistem üzərində işləyir. Lakin indi hökumətlə bankirlər arasında rəqabət başlayıb. Bankirlər pul və kredit kütləsinə təsir edən vahid Mərkəzi Bankın qurulmasını və onların nəzarətinə verilməsini istəyirlər. Əgər istəklərinə əməl olunmazsa, bank sahibləri milli statusdan imtina edəcəklərini deyirlər. Hökumət isə pul kütləsini Mərkəzi Bank, kreditləri isə banklar vasitəsilə tənzimləmək niyyətindədir. Daha sonra yeni pulların hansı şərtlərlə çıxarılacağı, banknot, yoxsa dövlət kağızı statusu daşıyacağı da bankirlər və hökumət arasında mübahisələrə səbəb oldu. Federal Rezerv Sistemi bu mübahisələrin nəticəsində yaradıldı. Bütün tərəflər yeni yaradılan sistemdən razı qalmışdı. Prezident Vilson bu sistem haqqında " yeni sistem ticarət və sənayenin müstəqilliyini təmin edəcək, pul kütləsindəki dalğalanmalar nəticəsində xalq sərvətlərini itirməyəcək!" demişdi.

Bank və pul sistemlərində islahatlar davam edərkən Rotşildlərlə əlaqəsi olan alman yəhudisi Pol Varburq Amerikaya köçdü. Rotşildlərin Frankfurt-Mayndakı bankında işləyən Varburq, Amerikada da Rotşildlərin digər bankında – "Kuhn, Loeb&Company"də işə başladı. Dəniz qüvvələrinin 1918-ci il tarixli məxfi hesabatlarında Pol Varburq haqqında aşağıdakılar deyilir:

"Varburq, Pol, Nyu York City, Alman; 1911-ci ildə Amerikaya köçüb. 1912-ci ildə Kayser tərəfindən medala layiq görülüb. ABŞ Federal Rezerv Sistemində müdir köməkçisidir. Almaniyada çox varlı və məşhur bir bankir

olan bu şəxs alman maliyyəsini Lenin və Trotskinin hesablarına köçürməsilə tanınır. Varburqun qardaşı Almaniya gizli xidmətlərində yüksək vəzifə sahibidir".

Yuxarıda haqqında bəhs olunan qardaş Feliks Varburqdur. O da Amerikaya köçüb və "Kuhn, Loeb&Company"də işləyib. Paul Varburq Amerikaya gələn kimi tanınmış Nyu-York bankirlərini iclasa çağırıb, Amerika bank sistemi üçün yeni islahat planı təqdim edib və plan bankirlər tərəfindən maraqla qarşılanıb. Daha sonra plan, eyni mövzu üzərində iki il işləyib beş min səhifəlik hesabat yazan Aldriç Pul Komissiyasına təqdim olunub və qəbul edilib. Pul Komissiyası "Bank of England"in əsas müqaviləsi olan təklifi qanun layihəsi kimi Konqresə təklif edib və o, "Aldriç Qanunu" adı ilə qəbul olunub.

Bundan dərhal sonra demokratlar qanuna müxalif çıxmağa başlayıblar, çünki qanun Amerika mərkəz bankının səlahiyyətlərini özəl banklara verir. Birinci və ikinci ABŞ dövlət bankları eksperimentlərinə əsaslanan demokratlar yeni qanunu qəbulolunmaz hesab edirlər. Respublikaçılar partiyasının seçkilərdəki məğlubiyyəti nəticəsində prezident Vilson və Konqresdəki demokratlar qələbə çaldılar. Artıq "Aldriç Qanunu" ya yenidən işlənməli, ya xalqa uyğun bir variantla əvəz olunmalıdır. "National City Bank"ının idarə heyətinin sədri Frank A. Vanderlip öz xatirələrində bu barədə danışır. Vanderlipin yazdığına görə, "J.PMorgan&Company"-dən Henri Devidson və "Kuhn, Loeb&Company"-dən Pol Varburq Corciya Savannadakı Jekyll adasında görüşərək, qanunu həm Demokrat partiyasını, həm də prezident Vilsonu qane edəcək şəklə salıblar, lakin qanunun mahiyyəti dəyişməyib. Qanunun yeni variantını bütün iştirakçılar və tərəflər qəbul edib: Respublikaçılar partiyası "Aldriç Qanunu"nun eynisi olduğuna görə, Demokrat partiyası onu özü hazırladığına

görə, Karter Qlass "Bankçılıq və Pul Komissiyası"nın sədri olduğuna görə, Pol Varburq isə öz məhsulu olduğuna görə. Prezident Vilson, Macadoo və Qlassın başqalarının hazırladığı qanunu Konqresdən keçirməkdən başqa çarələri yox idi. Federal Rezerv sistemi də Rotşild ailəsinin fikridir və ABŞ-a təlqin edilmişdi. Aydın görünür ki, Paul Varburq Amerikaya bank sistemini dəyişdirmək üçün gəlib. O və Rotşild ailəsi həmin vaxtdan bəri dünya müharibəsinin başlamasını gözləyirdilər.

Varburq və Rotşild ailəsi əmindi ki, dünya müharibəsi pul və kreditə olan tələbatı artıracaq və onlar dəyərdən düşən pullar vasitəsilə böyük gəlir əldə edə biləcəklər. Bu insanlar bilirlər ki, müharibə əsnasında ABŞ dünyanın ən böyük istehsalçısı kimi böyük miqdarda qızıl qazanacaq. Artan qızıl ehtiyatlarının kredit vasitəsilə pul kütləsini artıracağı, yaranacaq inflyasiyanın Amerikada rifahı yüksəldəcəyi və dünya rifah səviyyəsinin də bunun təsirinə məruz qalacağı aydındır. Belə bir şey Rotşildlərin işinə yaramır və buna mane olmaq lazım idi. Elə buna görə də Amerika Jerobim Rotşild və xələflərinə təslim edildi. Əvvəllər Amerika iqtisadiyyatı və vətəndaşlarına "Morgan&Co", "Kuhn, Loeb&Co" firmaları, banklar və onların iştirakçıları sayəsində nəzarət edən Rotşild ailəsi artıq mütləq hakimiyyətə sahibdir.

## *1920 və 1930-cu illər defilyasiyası*

Federal Rezerv qanununun orijinal variantında istifadə edilən terminlər, dil o qədər qəlizdir ki, həm prezident, həm də Konqres üzvləri bu mətni başa düşməkdə çətinlik çəkirlər. Bəlkə, prezident düşünüb ki, qanunda istədiyi dəyişiklikləri edərsə, o, əvvəlkindən daha yaxşı ola bilər. Bəlkə də prezident ümid edirmiş ki, dəyişikliklər

sayəsində qanun xalq və sənaye üçün yararlı hala düşəcək. Amma nəticə bunun tam əksi oldu. Qanun dəyişdiriləndən sonra konstitusiyaya zidd olsa da, yeni pul çıxarmaq və pul kütləsinə nəzarət hüququ Federal Rezerv Komitəsinə verildi. Yəhudi Ağsaqqallar Məclisinin istədiyi bütün dəyişiklikləri edən Amerika Konqresi təzə yaratdığı komitəyə birinci və ikinci Birləşmiş Amerika banklarından daha çox səlahiyyət verdi. Pol Varburq komitəyə əvvəlcə müdir köməkçisi, bir neçə aydan sonra isə müdir təyin olundu. Varburq 1919-cu ildə istefa verənə qədər bu vəzifədə qaldı. Həmin tarixdə Uilliam G.MacAddo xəzinə naziri vəzifəsindən istefa verdi və yerinə keçmiş kənd təsərrüfatı naziri Devid Houston keçdi. Eyni tarixdə Barni Barux Edvard M. House-ə tələ quraraq prezidentin ən yaxın məsləhətçisi oldu.

1920-ci il defilyasiyası bu şəraitdə baş vermişdi. Federal Rezerv bankları kommersiya banklarının əlindəki bonolara endirim etmədiyinə görə ölkədə böyük xaos başlamışdı. Əvvəllər xəzinə bonolarının sahibləri istədiyi anda nağda çevriləcəyi deyilirdi. Bu bonolar müharibəni maliyyələşdirmək məqsədilə çap edilmiş və xalqın marağına səbəb olmuşdu. Federal Rezerv sisteminin kredit kranlarını açacağından əmin olan banklar xalqa verdikləri kreditlərin miqdarını artırmışdılar. Ancaq Federal Rezervin rəhbərliyi gözlənilmədən kommersiya banklarına kredit verilməsini dayandırmışdı. Başlanğıcda federal müvəkkillər defilyasiyanın Yaponiya kimi ölkələrdəki yüksək gündəlik muzda və qiymətlərə reaksiya olaraq yarandığını demişdilər. Lakin Federal Məsləhət Qurumu, Federal Rezerv Komitəsi və Federal Rezerv Bankları başçılarının 15 may 1920-ci ildə keçirilmiş iclaslarının protokolları açıqlanandan sonra səhv etdiklərini boyunlarına almışdılar.

Heç kimin dəqiq araşdırmadığı iclas protokollarında o şəxslərin nə təklif etdikləri, nəyi, necə və nədən etdikləri aydın şəkildə öz əksini tapıb. Qısa şəkildə desək, iclasda qiymətlərin və gündəlik muzd haqqının nəzarətdə saxlanmasının vacibliyi, insanların dünyadakı tələblərə cavab verəcək qədər çox işləmədikləri müzakirə olunmuşdu. İclas iştirakçılarının fikrincə, bu səhvləri pul kütləsinə limit qoymaqla, kredit kranlarını bağlamaqla düzəltmək mümkün idi. İclas iştirakçılarından yalnız iki bankir pul və kreditlərin məhdudlaşdırılması fikrinə qarşı çıxmışdı. Bu da onu sübut edir ki, nə qədər ağıllı və savadlı olursa olsun, bir ölkənin iqtisadiyyatını bir qrupun monopoliyasına vermək olmaz. Bu qərar nəticəsində onu dəstəkləyən bankirlərdən əksəriyyəti iflas etmiş və hər şeylərini itirmişdilər. Alınan qərardan sonra Amerika iqtisadiyyatı tarixində ən böyük panika, çöküş yaşanmışdı. Bundan ən çox zərər çəkən isə depozit sahibləri, ticarət və sənaye sahəsinə kredit verən banklar olmuşdu. Bir çox qurumlar iflasa uğramış, minlərlə insan intihar etmiş, minlərlə insan səfil olmuşdu. Dövlət veksellərinin və xəzinə bonolarının dəyərini itirməsi onları girov götürərək kredit verən bankları batırmışdı. Bu böhrandan əvvəl ABŞ-ın ümumi milli hasilatı 500-600 milyard dollar olduğu halda, böhrandan sonra 250-300 milyard dollara düşmüşdü. İqtisadi böhran nəticəsində ölkəyə dəyən zərər ABŞ-ın, müharibə xərcləri də daxil olmaqla, yarandığı gündən 1914-cü ilə qədər çəkdiyi xərclərdən daha çoxdur.

Axırda Federal Rezerv Bankları, Amerika dövlətinin iflasının qarşısını almaq məqsədilə kredit kranlarını açmışdı və 1927-1929-cu illər arasında bazarlarda canlanma olmuşdu. Amma bu canlanma 1929-cu ildə spekulyasiyalara səbəb olmuş, nəticədə Federal Rezerv Bankları yenidən defilyasiya tədbirlərinə əl atmışdılar. On il müddətində

ümumi milli hasilatını 400 milyarda çatdıran Amerika iqtisadiyyatı yenidən 40-50% itki vermişdi. 1939-cu ildə Federal Rezerv Banklarının açıq-aşkar gördükləri defilyasiya tədbirlər 1920-ci il böhranından salamat xilas olmuş bankirlərə, fəhlələrə, ailələrə, xüsusilə də fermerlərə böyük ziyan vurmuşdu. Məhsul qiymətlərinin istehsal qiymətlərindən aşağı olması nəticəsində fermerlər evlərini, torpaqlarını itirmişdirlər. Fabriklər bağlanmış, 12 milyon fəhlə işdən çıxarılmışdı. Sonuncu iki böhran ölkəyə 1907-ci ildə süni yolla yaradılan panikadan daha böyük zərər vurmuşdu, çünki 1907-ci ildə banklar pul kanallarını açaraq, qısa müddətə böhranın öhdəsindən gəlmişdilər. 1907-ci ildə Yəhudi Ağsaqqallar Məclisi hələ Amerika iqtisadiyyatı üzərində mütləq hakim deyildi.

İqtisadi böhranların qarşısını ala bilməsi üçün Federal Rezerv sisteminə pul kütləsinə nəzarət hüququ verilmişdi. Amma çox təəssüf ki, bu sistem bundan sonra hələ üç belə böhranın meydana gəlməsinə səbəb olmuşdu. 1920, 1930-cu illərdəki və hazırkı iqtisadi böhranın öhdəsindən yalnız bir yolla gəlmək olar: bazarlara əlavə pul buraxmaq və pul bazarlarını Federal Rezerv adlı despotdan azad etməklə. Bu gün İngiltərə bank qanunlarının ölkəmizə adaptasiya olunması Federal Rezerv Bank sisteminin monopoliyaya keçməsinə səbəb olur. İngilis vətəndaşları da Mərkəzi Bankın qanunlarından sonra bizim kimi kredit kanallarının bağlanmasının, gümüş pulun dövriyyədən çıxarılmasının, pul kütləsinin inhisara götürülməsinin səbəblərini anlaya bilməmişdilər. Amma ingilislər iki məsələdə bizdən üstündürlər: İngilis xalqı mərkəz bankının təmərküzləşməsi, daha sonra isə təmərküzləşmənin müddətinin səkkiz dəfə uzadılması üçün yəhudi bankirlərdən imtiyaz haqqı alıb. Halbuki biz Federal Rezerv sisteminin təmərküzləşməsini müddətsiz və heç bir ödəniş edilmədən "Yəhudi Ağsaq-

qallar Məclisi"nin ixtiyarına vermişik. İngilis mərkəz bankı və digər mərkəz bankları xalqa aşağı faizlə kredit verdiyi halda bizim Federal Rezerv bankları sadəcə üzv banklara kredit verir və üstəlik özünü "bankların bankı" adlandırır.

## *1937-ci il defilyasiyası*

*"Siyasətdə uğur qazanmaq üçün görülən işlər gizli qalmalıdır. Əməllə sözlərin üst-üstə düşməyi vacib deyil".*

*7-ci protokoldan*

Federal Rezerv sistemi kifayət qədər pul kütləsi və kredit əldə etmək məqsədilə qurulmuşdu. Federal Rezerv sisteminin qurulması məsələsi ortalığa atılanda Amerika hələ 1907-ci il panikasını yenicə geridə qoyurdu. Daha əvvəl də göstərdiyimiz kimi, bu panika süni şəkildə Nyu-York bankları tərəfindən yaradılmışdı. Federal Rezerv sistemi məsələsi bir daha belə panikanın baş verməməsi üçün gündəmə gəlmişdi. Nyu-yorklu bankirlər sistemin dəyişdirilməsinə çox çalışmışdılar, hətta J. P. Morqan və "First National Bank of New York"un başçısı Geo. F. Baker, Pujo Komissiyasına verdikləri ifadələrində xalqın yaxşılığı üçün pul kütləsinin nəzarətdə saxlanılmasının vacib olduğunu demişdi. Bu ifadələr o vaxt hamını təəccübləndirsə də, indi 1907-ci il panikasının Federal Rezerv sistemini qurmaq məqsədilə yaradıldığını göstərir. Prezident Vudro Vilsonun xoşniyyətli olmasına nə qədər inansam da, 1920-ci il defilyasiyası onun yanlış siyasətinin nəticəsi idi. Pol Varburqu Federal Rezerv sisteminə əvvəlcə prezident köməkçisi, sonra isə prezident təyin edən Vilson "Aldriç Qanunu" layihəsini hazırlayan bu adamı, demək olar ki, mükafatlandırmışdı. Varburq Mərkəzi Bankın defilyasiya hüququnu Federal

Rezerv Sisteminə vermiş və bunu prezident Vilsona qəbul etdirmişdi. Özü isə defilyasiya başlamazdan əvvəl istefa vermiş və yaranacaq böhranın məsulliyyətini seçkilərdə uğur qazandıqlarını düşünən demokratların üstünə atmışdı. Demokratlar elə bilirdilər ki, Federal Rezerv Komitəsi on iki Federal Rezerv bankı arasında koordinator rolunu oynayacaq, əsas banka üzv olan Federal Rezerv bankları öz idarə heyətlərində sərbəst şəkildə qərarlar qəbul edə biləcəklər. Həqiqətən də, qanuna əsasən istənilən kommersiya bankı əlindəki dövlət veksellərini, xəzinə bonolarını tabe olduğu federal bankda güzəştlə nağda çevirə bilər. Bu üsulun məqsədi bazara xalqın da, biznes müəssisələrinin də tələbatını ödəyəcək miqdarda pul buraxılmasıdır. Ancaq Varburqun istəyi ilə bu üsul 1920-ci ildə Konqresdə dəyişdirilmiş və bununla da Federal Rezerv banklarına, onlara tabe olan kommersiya banklarının güzəştli əməliyyatlarına limit qoymaq və dövlət veksellərі, xəzinə bonolarını nağda çevirməkdən imtina etmək hüququ verilmişdi. Yəni daha pul kütləsi bazarın tələblərinə əsasən yox, Federal Rezerv sisteminin nəzarəti altında reallaşdırılırdı. 1920-ci il böhranında Federal Rezerv bankları bu hüquqlarından istifadə etmişdilər. Pul kütləsini tənzimləyən monopoliya sayəsində 1920-1930-cu illərdə iqtisadi böhranlar baş vermişdi. Federal Rezerv Sisteminin qəbul etdiyi hər qərar, Konqresin dəstəklədiyi hər qanun ölkəni mərkəz bankçılığı sisteminə sürükləyir və ölkə iqtisadiyyatında ölüm-dirim vəziyyəti yaradır. Federal Rezerv Komitəsi qanuna zidd olaraq, pul kütləsinə nəzarət edən, onu tənzimləyən "Açıq Bazar Komissiyası" yaradıb və Nyu-York Federal Rezerv Bankının prezidentini ona sədr təyin edib. Komissiyaya Nyu-York və Çikaqo bazarlarında veksel və bono alqı-satqısına, pul kütləsinə nəzarət etmək, Federal Rezerv Bankı bonolarını çıxarmaq səlahiyyəti ve-

rilib. Həmçinin komissiya pul kütləsini məhdudlaşdırmaq məqsədilə bazarlara bono və veksellər satmaq hüququna sahibdir.

Yeni qurum üzv bankların xəzinə bonolarını və dövlət veksellərini güzəştlə alaraq, pul kütləsini artırmaq səlahiyyətini ortadan qaldırır. Qurumla Açıq Bazar Komissiyası arasında bircə fərq var: komissiya Amerikaya nə qədər pul lazım olduğunu təkbaşına müəyyənləşdirmək hüququna sahibdi. Halbuki köhnə sistemdə pul kütləsini ticarət, sənaye müəssisələri və kommersiya bankları müəyyənləşdirirdi.

1932-ci ildəki seçki kampaniyasında Ruzvelt, prezident Huveri böhran zamanı lazımi tərbirləri görməməkdə təqsirləndirmişdi. Amma bu kampaniyada heç bir partiya və heç bir namizəd Mərkəzi Bank sisteminin inkişaf etdirilməsi və səlahiyyətlərinin artırılması haqqında danışmamışdı. Deyilənlərin əksinə olaraq, 1935-ci ildə qəbul edilən bank qanunu Açıq Bazar Komissiyasının səlahiyyətlərini daha da artırdı. Bu qanuna əsasən prezident Ruzvelt Marriner S. Eklası komissiyanın prezidenti təyin etdi. Komissiya defilyasiya professoru Miller istisna olmaqla tamamilə yeni üzvlərdən təşkil olunub.

İlk Federal Rezerv Qanunu Federal Rezerv Banklarında aşağıdakı ehtiyatları saxlamağı məsləhət görürdü: kiçik şəhərlərdəki banklar depozitlərin 7%-ni, rezerv bankların olduğu şəhərlərdəki banklar depozitlərin 10%-ni, mərkəzi rezerv banklarının olduğu şəhərlərdəki banklar depozitlərin 13%-ni.

Bu ehtiyatlara yalnız Federal Rezerv Komitəsi nəzarət edə bilər. Bu ehtiyatlara nəzarət edilməsi və banklara cəza verilməsi kommersiya banklarının iflası deməkdi. 1935-ci ildə qəbul olunan Bank Qanunu bankların, Federal Rezerv Banklarında saxlaya biləcəkləri depozit miqdarını

50% artırmışdı. Əslində yeni sistem Açıq Bazar Komissiyası vasitəsilə pul kütləsinə nəzarət edir. Yəni kommersiya banklarının öz ehtiyat miqdarını artırmağa ehtiyacları yoxdur. Bu yeni tədbirin məqsədi əvvəllər istifadə olunan üsulun yenidən ortaya çıxmasından sonra defilyasiyanın təqsirini başqalarının üstünə atmaq idi. Prezident Ruzvelt keçmiş prezident Huverin səhvlərini düzəltmək iddiası ilə seçildiyinə görə defilyasiya yaratmaq üçün yeni bir üsul icad edilmişdi.

1936-cı il avqustun 26-da bankların ehtiyat depozitlərini 50% artıran Federal Rezerv Komitəsi nəticələrdən razı qalmadığına görə 1937-ci il yanvarın 30-da aşağıdakı qərarı verdi:

"1 mart 1937-ci il tarixindən etibarən bankların Federal Rezerv banklarında saxlamalı olduğu depozitlər Federal Rezerv Qanununun 19-cu bölməsində də göstərilən miqdarların 100%-i qədər atrırılacaq".

Bu qərarla bərabər Federal Rezerv banklarının kassalarında 13.863.000.000 dollar toplanmışdı. Bu məbləğ bazarlarda dövriyyədə olan puldan on dəfə çoxdur. Bu miqdarla ən azı 70.000.000.000 dollar kredit kütləsi yaratmaq mümkündür. Əgər bu məbləğ dövriyyədə qalsa, heç bir böhran olmayacaq. Yəni bazarlardan pulun çəkilməsi açıq-aydın böhran yaratmaq məqsədi güdür. Bu qərar dövlət istiqrazlarını almağa məcbur edilən kiçik banklarda böyük satış problemləri yaratdı. Artıq banklar xalqa və kiçik müəssisələrə kredit verə bilməyəcək vəziyyətdədirlər. Amerikada həyata keçirilən bu iqtisadi tədbirlərin dünyada tayı-bərabəri yoxdur.

1935-ci ildə qəbul olunan bank qanunu bank hesablarını zəmanət altına almaq üçün yaradılıb, ancaq Karter Qlassın təklif etdiyi dəyişikliklər ediləndən sonra qanun "Yəhudi Ağsaqqallar Məclisi"nin məqsədlərinə xidmət

edəcək şəklə düşüb. Prezident Ruzvelt əvvəl nə qədər xoşniyyətli olsa da, bəzi təyinatları ilə bu böyük cinayətə ortaq olub. Prezident Komissiyasını qurtarmaq məqsədilə mətbuat konfranslarından birində bazarda bəzi qiymətlərin dəyişkənliyindən şikayətlənmişdi. Halbuki sərbəst bazar iqtisadiyyatını tətbiq etmək istəyən prezident bilməli idi ki, pul kütləsi və tələb-təklif münasibətlərində hər zaman bəzi xidmətlərin və malların qiymətləri dəyişkən olur.

İndiki defilyasiya ilə 1920-ci il Vilson böhranı arasında böyük fərq var. 1920-ci ildə qiymətlər və günəmuzd yüksək, pul isə dəyərsiz idi, amma işsizlik minumum səviyyədə idi. Halbuki beş il sürən Huver defilyasiyasından sonra prezident Ruzveltin təklifi ilə milyardlarla dollar xərclənsə də, hələ də 10.000.000 işsiz amerikalı var.

## *Sona doğru*

*"Siyasətin əxlaqla əlaqəsi yoxdur. Əxlaqi dəyərlərə sadiq qalan siyasətçi uğur qazana, tutduğu mövqeni qoruya bilməz. Yaxşı siyasətçinin böyük xəyalları və inandırma qabiliyyəti olmalıdır. Dürüstlük və səmimiyyət kimi dəyərlər siyasətdə zəiflik hesab olunur, bu dəyərlər siyasətçiyə ən güclü düşmənindən də daha çox zərər verə bilər. Bu dəyərlər yəhudi olmayanların işinə yaraya bilər, amma ölkəni idarə etmək üçün kifayət deyil".*

*1-ci protokoldan*

4 mart 1933-cü ildə prezidentlik çıxışında Ruzvelt belə demişdi: "Hazırkı vəziyyət pul tacirlərinin bacarıqsızlığı və tərsliyi üzündən yaranıb. Xalq onları mühakimə edəcək. Onlar təkrar kreditlər verərək batan kreditləri qurtarmağa çalışırlar. Gözləri şəxsi mənfəətlərindən başqa heç nə görməyən bu insanlar uzaqgörən deyillər.

Uzaqgörən olmayan insanlar məhvə məhkumdurlar. Bu pul tacirləri indi mədəniyyətimizin zirvəsindəki taxtlarını qoyub qaçıblar. İndi biz ənənələrimizə söykənərək mədəniyyətimizi yenidən inşa etməliyik. Biz özümüzü ələ almalı, milli dəyərlərimizi geri qaytarmalı, mənfəət məqsədilə yox, ölkəmizə xidmət üçün çalışmalıyıq. Artıq bizim daha sabit və kifayət qədər pula ehtiyacımız var". Bu sözlər alqışlarla qarşılanmış və xalqı ümidləndirmişdi. Bir gün sonra Jon N. Simpson prezidentə zəng edərək "sabit və kifayət qədər pul" sözlərinin mənasını soruşub. Mətbuatda yazılanlara görə, prezident cavab olaraq hökumətin qanuni haqqından istifadə edərək pulu artırmaq və bazarları canlandırmaq istədiyini bildirib. İndiki vəziyyətimizi və yuxarıdakı sözləri nəzərə alaraq deyə bilərik ki, prezident ya xalqı aldadıb, ya da bu sözlərdən bir gün sonra iqtisadi planını dəyişib. 6 mart 1933-cü ildə prezident, ABŞ-dakı əksər bankların maddi vəziyyətlərini nəzərə almadan bağlanmasına qərar vermişdir. Prezident tərcümeyi-halının 4-cü səhifəsində belə yazır:

"Bir dostum 1917-ci ildə qəbul olunmuş Səfərbərlik haqqında qanunun hələ tam ləğv olunmadığını göstərən bir sənəd gətirdi".

Əgər bu həqiqətdirsə, o qanunlar yalnız müharibə şəraitində və hərbi məqsədlərə yönəlmiş tədbirlər üçün etibarlıdır. Prezident bankların bağlanması qərarını verməklə konstitusiyanı tapdalayıb və cinayət törədib. Həm də bağlanılan banklar öz maddi problemləri ucbatından yox, 1930-cu ildə Federal Rezerv Komitəsinin gördüyü tədbirlər nəticəsində dara düşən müştərilərinə görə nağd pul sıxıntısı çəkirdi. Verdikləri kreditləri geri ala bilməyən bankların kassalarında hesab sahiblərinə ödəyəcək nağd pul

yoxdu. Bu pul yalnız Federal Rezerv banklarından alına bilər, amma Federal Rezerv bankları kommersiya banklarına yardımdan imtina edib. Yəni iqtisadiyyatı xilas etmək üçün bankların hamısını bağlamaq lazım deyil. Əksinə, hökumət Federal Rezerv sisteminə əl qoyaraq qanuni hüququndan istifadə etməli və bazardakı pul kütləsini artırmalıdır. Bu vəziyyətdə isə ən tez nəticə Federal Rezerv Komitəsinin rəhbərliyini işdən azad edərək, yerinə kommersiya banklarındakı dövlət istiqrazlarının qarşılığında pul verə biləcək rəhbərlərin təyinilə əldə oluna bilər. Açığı, iqtisadiyyatı düzəltməyin yolu kredit və pul kanallarını açmaqdır. Bu həqiqəti prezident də bilir. Buna görə çıxışında xalqa bundan bəhs edib. Amma prezident Amerika xalqını aldadıb və böhrana sürükləmişdi.

1929-cu ildə bütün ölkədə 30.000 əyalət və milli bank vardı. 1932-ci ildə bu rəqəm 19.163-ə düşüb. Prezidentin yeni qərarı ilə qalan bankların 4.541-i də bağlanıb. Bağlanan bankların 4.356.799.000 dollarlıq depoziti müsadirə edilib. Sonra bu miqdarın böyük bir hissəsi yoxa çıxıb və prezidentimiz öz tərcümeyi-halında konstitusiyanı tapdalayaraq minlərlə bank sərmayəçisini, müştərini səfilliyə məhkum etməsi ilə öyünür.

Prezident 15 yanvar 1934-cü ildə Konqresə yazdığı ismarışında deyir: "İcazə verin, sizə iki vacib prinsipi xatırladım. Birincisi, sabit pul kütləsinə sahib olmağımız vacibdir. Buna mümkün qədər nail olmağa çalışmışıq, bazarlara gündəlik həyatı çətinləşdirəcək və müəyyən miqdarda ehtiyacları ödəyəcək qədər pul buraxılıb. İkinci vacib prinsip isə hökumət pul çıxarma hüququna və pulun bağlı olduğu dəyərli metal ehtiyatlarının tək sahibi olmalıdır. Bu hökumətimizin hərdən dəyərli metal ehtiyatlarına müdaxiləsini vacibləşdirir".

Bu sözləri hətta Con Stüart Mill və ya Devid Rikardo da daha gözəl şəkildə ifadə edə bilməzdi. Yəni prezidentin pul siyasətini bilməməsi kimi bir üzrü ola bilməz. Cazibə qanunu qədər açıq olan bazarların pul tələbatı, təəssüf ki, Federal Rezerv Komitəsinin təşəbbüsünün nəticəsidir.

## *Yalançılar və oğrular*

30 oktyabr 1938-ci ilə aid xəzinə hesabatında 1914-1938-ci illərdəki Amerika ehtiyatlarının siyahısı verilib. 1914-cü ildə "bütün banklar" başlığı altında, Federal Rezerv bankları xaric, bütün digər banklar başa düşülür və bu 1.630.000.000 dollar həcmindədir. Eyni rəqəm 1938-ci ildə 991.500.000 dollar olub. Yəni iyirmi dörd il əvvəl qurulan Federal Rezerv Sistemindən sonra bazardakı pul miqdarı 638.500.000 dollar aşağı düşüb.

Həmin hesabata görə, 1914-cü ildə bir nəfərə düşən pul miqdarı 18,46 dollar idisə, 1938-ci ildə bu rəqəm 42,02 dollar olub və sonuncu rəqəm hesablananda Federal Rezerv banklarında və xəzinədəki pullar nəzərə alınmayıb. Yoxlamadan kənar qalan xəzinə və Federal Rezerv banklarındakı pulun miqdarı dəqiq məlum deyil. Hesabatda 42,02 dollar göstərilsə də, aydındır ki, bir nəfərə düşən pulun miqdarı bu deyil. Yaxşı, bəs bu pullar hara gedib?

Xəzinə özünü qurtarmaq üçün verdiyi hesabatda bildirir ki, 1861-ci ildən bəri bazardakı pul miqdarı üzərində düzəliş aparılmayıb, bu miqdar bütün dünyadakı Amerika dollarları, itmiş və zədəli pulları da əhatə edir, yəni xəzinə hər şeyi çıxarılan pul kimi hesablayır. Ancaq bu da 1914-cü ildə cibdəki 18,46 dolların 1938-ci ildə 42,02 dollara necə çıxdığını açıqlamır. Çünki həmin vaxt orta bank hesabı adambaşına 16,30 dollardan 7,00 dollara düşüb.

Banklarda olduğu hesab olunan 50.000.000.000 dollar depozit həqiqi pul deyil, alınan kreditlərlə şişirdilmiş və pul şəklində geri ödənilməli olan məbləğdir. Bankların maliyyə hesabatlarında da 991.500.000 dollar depozit olduğu göstərilir. Yəni banklar aldıqları kreditlərin cəmi 2%-nə kifayət edən depozitlərə malikdirlər. Artan insan sayına və ticarət həcminə xidmət məqsədilə pul kütləsinin artırılmasını planlaşdıran Federal Rezerv bu gün Amerika iqtisadiyyatı üçün bəlaya çevrilib. Konqres pul çıxarma səlahiyyətinin bitməsinə beş il qalmış bu quruma müddətsiz səlahiyyət, 1935-ci ildə qəbul olunan bank qanunu ilə Federal Rezerv sisteminə xalqın rifah səviyyəsi üzərində tam nəzarət hüququ verib.

Alınan kreditlərlə xalqın rifah səviyyəsinin artacağını gözləmək sadəcə xəyaldı. Kredit verən sələmçi həmişə əlindəki pulun dəyərli olmasını istəyər və dəyərli pul ilə istədiyi hər şeyi rahat ala bilər. Konqresin konstitusiyanın ona verdiyi hüququ Açıq Bazar Komissiyası kimi qurumlara dövr etmədən pul kütləsinə müdaxilə etməli və bazardakı pulun miqdarını artırmalıdır.

Prezident Huver vəzifədən getdiyi il dövriyyədə 730.435.000 dollar əsginaz olduğu halda 1936-cı ildə bu məbləğ 257.265.000 dollar azalıb. "Azadlıqlar ölkəsi olan Amerikanın" adambaşına 42,02 dollar verməsi böyük yalandır. Bu gün Amerika xəzinəsində 20.400.000.000 dollar qızıl və 3.000.000.000 dollar gümüş olduğu halda pul kütləsi niyə artırılmır?

Yəhudi olmayan Adam Smit və Con Stüart Mill dünyada qiymətlərin dövriyyədəki pulun miqdarından asılı olaraq dəyişdiyini və pulun xüsusiyyətinin heç bir əhəmiyyəti olmadığını deyir, amma yəhudi iqtisadçılar "Qızıl Standartı"nı yaradaraq və dövriyyədəki pulun miqdarı ilə bağlı yalan söyləyirlər.

## *Pulu pis idarə etmək*

Federal Rezerv qanunu qüvvəyə mindikdən ABŞ-ın pulunu Rotşild ailəsi idarə edir. Bu sistemdə pul çapı və kommersiya banklarının əlindəki dəyərli kağızların güzəştlə nağda çevrilməsi səlahiyyəti yalnız Federal Rezerv banklarına məxsusdur. Bu iyrənc sistem yaradılana qədər Amerika firavanlıq içində yaşayan bir ölkə idi. Tarix boyu yaşadığımız üç böyük iqtisadi böhranın səbəbi pulun doğru idarə olunmamağıdır. İşin pis tərəfi də budur ki, bütün ABŞ vətəndaşları bu planlı təxribata addım-addım yaxınlaşdırılmışdılar.

Vətəndaş müharibəsindən keçən dövr ərzində Rotşild ailəsi Amerikanın sərmayələrini ələ keçirməyə çalışır. Amerikalıların "Wall Street" adlandırdıqları yer Rotşild ailəsinin güc mərkəzidir. Ailənin istəmədiyi heç kim burda işləyə, heç nəyə etiraz edə bilməz. Abraham Linkolndan başqa heç bir bankir, dövlət məmuru və ya başqa məsul şəxs buna cəsarət etməyib.

Ağsaqqallar Məclisi əlindəki medianın dəstəyi ilə dövlətin puluna nəzarəti öz inhisarına keçirmək istəyir, hətta bu məqsədlə senatı da satın alıb. Oklahoma senatoru Tomasın qiymətlərə nəzarət edən komissiya yaratmaq təklifi 1929-cu ildə Federal Rezerv Komitəsinin başçısı Eccles tərəfindən qəti şəkildə rədd edilib. Rəddinin səbəbi Ruzvelt və ya "patronun" seçkilərdə qalib gələndən sonra xalqa verdiyi vədi unudaraq defilyasiya siyasəti yürütməsi idi. Əslində problemin həlli çox asandır. Konqres Federal Rezerv sisteminə edilən dəyişiklikləri ləğv etsə, bazardakı pul kütləsinə rahat nəzarət edə biləcək və ticarətin həcmi, işsizlik və rifah istənilən səviyyəyə gələcək. Konqres üzvləri bu həqiqəti görməli və lazımi addımlar atmalıdırlar. Konqres üzvləri 1920, 1930 və 1937-ci il böhranlarının Fe-

deral Rezerv sistemi ucbatından yarandığını bilməlidilər. Ya bu sistem yox edilməli, ya da ən azından Amerikanın əl-qolunu bağlayan Rotşild sərmayəsinin səlahiyyətləri məhdudlaşdırılmalıdır. Ancaq Konqres bunun tam əksini edib – Federal Rezerv sisteminə qızıl, gümüş sertifikatları və dövriyyədəki banknotları toplamaq səlahiyyətləri verib.

Rifah, barış və hüzur üçün atılacaq ilk addım yararsız pul siyasətindən əl çəkməkdir. İkincisi, xalqın yaşaması, vergilərini və kreditlərini ödəyə bilməsi üçün lazım olan pulun miqdarı müəyyənləşdirilməlidir. Üçüncü addım, bu pul miqdarı təkcə Nyu-York və Çikaqoda yox, bütün ölkədə dövriyyəyə buraxılmalıdır. Dördüncüsü, bankların bazardakı pulu toplamalarına mane olmaq lazımdır. Son olaraq da lazım gəlsə, dövriyyəyə əlavə pul buraxılmalıdır.

Bunların əvəzinə Konqres "Tomas qanununa dəyişikliklər"in müddətini 15 iyun 1941-ci ilə qədər uzadaraq iki milyard dollarlıq fondun müddətini, qızıl və gümüş almaq səlahiyyətinin müddətini uzatmış, prezidentə bazara əlavə 6 milyard dollar buraxmaq hüququnu vermişdir. Yəni bu yeni sərəncam konstitusiya tərəfindən təzə pul çıxartmaq və qiymətləri tənzimləmək hüququnu prezidentə vermişdir. Dəyişikliyi təklif edən Tomasın məqsədi dövriyyəyə yeni qaynaqlar gətirərək iqtisadiyyatı canlandırmaq olsa da, prezident bunu istəmir. Buna görə də o, qanuna edilmiş dəyişiklikləri dəstəkləyərək bütün səlahiyyətləri öz əlində toplayıb.

Həqiqətən, əksəriyyəti "kasıb-kusubun dostu" dəyərli senatorlardan ibarət senatın "Əkinçilik və Meşə Komissiyası"nın protokollarında görülməsi nəzərdə tutulan işlərin siyahısından sonra aşağıdakılar yazılıb ( 75-ci Konqres protokolları, səhifə 625-də): "İlk tədbir pulun qızıldan asılılığına son qoymaqdır. Bu tədbir iki ay ərzində pambığın qiymətini 6,3 sentdən 8,95 sentə, buğdanın qiymətini

45 sentdən 75 sentə, qarğıdalının qiymətini 24 sentdən 46 sentə, yunun qiymətini isə 17 sentdən 24 sentə qaldıracaq. "Qızıl Standartları"ndan imtina edən Argentina, Avstraliya, Kanada, Danimarka və Cənubi Afrika kimi aqrar ölkələrdə belə olub. Hətta Cənubi Afrika kimi qızıl istehsalı ilə məşğul olan ölkə belə kənd təsərrüfatı məhsullarının qiymətlərinə pis təsir etdiyinə görə "Qızıl Standardları"ndan vaz keçib. Bu tədbirlər daxili bazarlara əlavə pul axınına səbəb olacaq və iqtisadiyyatı canlandıracaq.

İkinci tədbir: hazırda xüsusi və rəsmi qurumlar arasında nizamsız şəkildə bölünmüş "qiymətlərə nəzarət" hüququ Konqresin qərarı ilə vahid federal quruma verilməlidir. Bazarda qiymətlərin tənzimlənməsinə bu qurum cavabdeh olmalıdır. Kənd təsərrüfatında böhranın qarşısını almaq üçün defilyasiyaya nəzarət etmək kifayət deyil.

Bu sahənin vəziyyəti, bazara buraxılacaq əlavə pulun miqdarından asılıdır. Nə qədər ki əlavə mənbələr yoxdur, kənd təsərrüfatında yaxşılaşma gözlənilməməlidir.

Keçən mart ayından bəri dolların qiyməti 1,13-dən 1,19-a düşüb. Bu isə işsizliyin artmasına və ticarət həcminin azalmasına səbəb olub.

Komissiyamız müəyyənləşdirib ki, dolların dəyəri kifayət qədər düşmədiyinə görə qiymətlər də kifayət qədər qalxmır, buna görə də büdcə kəsrimizi qapadacaq miqdarda vergi toplaya bilməyəcəyik. Dolların dəyərinin düşməsi, qiymətlərin qalxması maaşların da artmasına və əhalinin rifahının düzəlməyinə, xəzinə gəlirinin çoxalmasına səbəb olacaq.

1919-cu ildə bugünkündən yüksək qiymətlərlə milli sərvət və gəlirimiz aşağıdakı kimi idi:

Ümumi milli gəlir: 69.000.000.000 dollar

Əkinə yararlı sahələrin ümumi dəyəri: 66.000.000.000 dollar

Kənd təsərrüfatının ümumi gəliri: 13.000.000.000 dollar
İxracat gəlirləri: 8.200.000.000 dollar
Xəzinə gəlirləri: 6.007.000.000 dollar.
1932-ci ildə aşağı qiymət səviyyəsi ilə nəticələr belə idi:
Ümumi milli gəlir: 39.000.000.000 dollar
Əkinə yararlı sahələrin ümumi dəyəri: 36.000.000.000 dollar
Kənd təsərrüfatının ümumi gəliri: 5.000.000.000 dollar
İxracat gəlirləri: 1.600.000.000 dollar
Xəzinə gəlirləri: 2.100.000.000 dollar.

Rəqəmlərdən də göründüyü kimi, qiymət səviyyəsinin iqtisadiyyata böyük təsiri var. 1919-1929-cu illər arasında dolların məzənnəsinin aşağı olması nəticəsində həm milli büdcənin sabitliyi qorunub, həm də hər il milli borcumuz 1.000.000.000 dollar azalıb.

Komissiyamız təklif edir ki, qanuna edilən dəyişiklik nəticəsində əldə olunan hüquqlardan istifadə edərək, ya da lazım gələrsə, yeni qanun qəbul olunaraq qiymətlər artırılsın".

Qısası, komissiya prezidentə, ona verilən səlahiyyətlərdən istifadə etməyi məsləhət görür. Amma prezident qızılın dəyərinin bir qədər aşağı salınmasından başqa ona verilən səlahiyyətlərin heç birindən istifadə etmədi. Əslində həmin səlahiyyətləri qanunla prezidentə dövr edən Konqres onlardan istifadə olunacağını düşünürdü. Lakin prezidentin məqsədi Konqresin bazara nəzarət hüququnu əlindən almaq idi.

Təbii ki, Konqresdə çoxluq təşkil edən demokratlar prezidentin siyasətini dəstəkləyirlər. Respublikaçılar az yerə sahibdilər. Yəni Konqresin bütün üzvlərini Rotşildlərin adamı olmaqla təqsirləndirmək böyük haqsızlıqdır. Digər tərəfdən, yəhudi mediası inflyasiya haqqında hər dəfə istehza ilə, xalqı qorxudaraq danışır. Əslində bu

barədə yazan jurnalistlərin inflyasiya və qiymət artımından xəbərləri yoxdur, sadəcə, maaş almaq üçün patronlarının istədiklərini yazırlar.

Konqres üzvləri "tərəfkeş media" tərəfindən izlənilir, mediada gözdən salınmaqdan qorxurlar. Siyasətçilərdən kimsə xalqın mənfəətini müdafiə etməyə başlayan kimi mətbuat dərhal onu təhlükəli radikal adlandırır. Ağsaqqallar Məclisinin məqsədlərinə qulluq edən siyasətçilərə isə "vətənpərvər və savadlı iqtisadçılar" deyə tərif yağdırırlar. Həmin media bütün rəzalətlərin əsas səbəbkarı olan Karter Qlassı elə tərifləmişdi ki, bu adam özünü Con Stüart Milldən daha güclü iqtisadçı hesab etməyə başlamışdı. Ağsaqqallar Məclisi "inflyasiya" kəlməsini qorxunc bir anlayışa çevirib. Bu gün heç bir Konqres üzvü "inflyasiyaçı" damğası almaq istəməz. Onlar bəlkə defilyasiyaçı və ya refilasiyaçı damğalarını qəbul edə bilərlər, ancaq inflyasiyaçı damğası onlar üçün qorxunc bir şeydir.

"Əkinçilik və Meşə Komissiyası" Vaşinqton mühitində qiymət artımının və inflyasiyanın xalqın rifahına müsbət təsir edəcəyini demişdi.

Əslində Ruzvelt və Barney Barux da bunu çox yaxşı bilirdilər və qiymətləri artırmaq hüququ onların əlində idi, ancaq bunu reallaşdırmaq fikirləri yox idi. Prezident onu və Konqres üzvlərini seçən xalqa yox, onun seçki kampaniyasını dəstəkləyən Barney Baruxa və onun qrupuna verdiyi sözlərə əməl eləyir. Senatın Maliyyə Komissiyasında Barux "Əgər bilsəm ki, böhrandan yeganə çıxış yolu inflyasiyadır, onu dəstəkləyərdim. Ancaq inflyasiyanın yararlı olduğuna inanmıram. Böhrandan qurtulmaq üçün Amerika xalqının "güvənə" ehtiyacı var" demişdi.

## İflas

*"Dövlətlərə verilən kreditlər onların dərmanını kəsir və haqlarını şübhə altına alır. Dövlətlərə verilən kreditlər onların başı üstündə "Demokrisin qılıncı" kimidir. Dövlətlər vergi yığaraq bu kreditləri birdəfəyə ödəmək əvəzinə yenidən kredit almağı daha asan yol hesab edirlər. Xaricdən alınan kreditlər zəli kimidir. Bu zəlilər ya öz başına dövlətin üstündən düşür, ya da dövlət özü onu qoparıb atmalıdır. Ancaq yəhudi olmayan dövlətlər bu zəliləri qoparıb atmaq əvəzinə üzərlərinə yeni zəlilər yığırlar və beləcə də qan itkisindən ölüb getdilər".*

*20-ci protokoldan*

Prezidentin 15 yanvar 1934-cü il tarixində Konqresdə etdiyi çıxışdan aydındır ki, federal hökumət, bazara əlavə pul buraxaraq qiymət səviyyəsini tənzimləmək hüququ olduğunu bilir. Prezident bu səlahiyyəti Konqresdən alıb, hətta o, zaman-zaman 1929-cu ildəki qiymətlərə geri qayıtmaq istədiyini də vurğulamışdı. Ancaq bu məqsədə çatmaq üçün heç bir addım atmayıb. Prezidentin bu mesajına əsasən Konqres "Conelly qanunu"nu qəbul edib qızılın dəyərini 40% endirmişdi. Yəni qızıl ehtiyatlarımız artıb. Konqresin atdığı bu addım pul kütləsinin artımı ilə dəstəklənsəydi, iqtisadiyyatımız inkişaf edərdi və 1929-cu il səviyyəsinə geri dönüş başlanardı. Amma bazarlara bir dollar da əlavə pul buraxılmadı. Konqresin addımı dəstəksiz qaldığı üçün ixracat əvəzi qızıla qarşılıq olaraq artdı. Konqres eyni zamanda "Tomas qanunu"nu qəbul edərək prezidentə qızıl və gümüş alma səlahiyyətini, pula gümüş ehtiyatlarını da əlavə edərək pul kütləsini artırma və qızıl-gümüş sertifikatlarını satın alma səlahiyyətini verdi.

Amerika son dörd il ərzində xüsusilə İngiltərə və Rusiyadan unsiyası 35 dollardan 8.660.000.000 dollar qızıl aldı. Bu qədər qızılın Amerikaya gətirilməsinin bir səbəbi

qızıla ən yüksək qiyməti hökumətimizin ödəməsi, digəri isə başqa dövlətlərin və yəhudilərin öz qızıllarını Amerikada saxlamaq istəməsi idi. Qızılın idxalı üçün lazım olan məbləğ Amerika dövlət istiqrazları satmaqla toplanmışdı. Xarici ölkələrə göndərilmiş dollarlar xəzinə tərəfindən dövriyyədə olan pullar kimi qələmə verilsə də, əslində bu, ölkəmizin iqtisadiyyatı xaricinə çıxmış puldur.

Qızıl idxalının ən pis tərəfi Amerika xalqının ildə 200.000.000 dollar faiz ödəməklə 8.660.000.000 dollar borca düşməsidir. Qızıl idxalı Konqres vasitəsi ilə həyata keçirilsəydi, çıxarılacaq qızıl sertifikatları ilə idxal edilən qızıl bir-birinə bərabər olacaq, xalqın üstünə faiz yükü düşməyəcək, həmçinin bazarda pul itkisi olmayacaqdı.

Həm də yeni qızıl sertifikatlarının satışı nəticəsində digər ölkələrdən Amerika bazarına nağd pul daxil olacaqdı. Ancaq indi biz bir tərəfdən böyük məbləğdə nağd pul itirmişik, digər tərəfdən isə heç bir işə yaramayan qızıl ehtiyatı ilə baş-başa qalmışıq və dünyada xarici ticarət nağd pul çatışmazlığı ucbatından tıxanmış vəziyyətdədir. Qızılın dünya ticarət və pul sistemindəki dəyəri aşağı düşməyənə qədər yeni problemlər yaranacaq və axırda ölkələr mübadilə sisteminə geri qayıtmalı olacaqlar.

Hazırda Amerikanın əlində 20.400.000.000 milyon dollar qızıl var. Bütün dünyada qalan qızıl miqdarının dəyəri isə təxminən 7.462.000.000 dollara yaxındır. Artur Brisban bu barədə "Cənubi Afrikada qulların torpaq altından qızıl çıxarmaq sürəti Amerikanın qızılı basdırma sürətinə bərabərdir" deyir.

Prezident Ruzvelt tərcümeyi-halında seçki kampaniyası haqqında aşağıdakı xatirəsini yazıb:

"İnsanlara iqtisadi böhrandan danışarkən onlara iki sütundan ibarət bir şəkil təsvir edirəm. Birinci sütunda Amerikanın sərvətlərini, ikincidə isə borclarımızın dollarla

miqdarını göstərirəm. 1929-cu ildə sərvətlərimiz borclarımızdan daha çox olduğu halda 1933-cü ildə sərvətlərimizin borclarımızdan daha az olduğu diqqət çəkir. Bu vəziyyətdə ya iflaslar və müsadirə yolu ilə borclarımızı geri almağa çalışacağıq, ya da sərvətlərimizi borclarımızı keçəcək şəkildə dəyərləndirməliyik".

Çox təəssüf ki, Amerikanın borcları onun qanını soran zəlilərə çevrilib. Rotşild ailəsi və yəhudilərə olan borclarımızı yenə də onlardan alacağımız borclarla ödəməli olacağıq. Bu qapalı dairəni yalnız bütün borcları ləğv etməklə qıra bilərik. Həqiqətən də, yəhudilər ənənəvi olaraq əlli ildən bir "Yubiley" adı ilə onlara borclu olan digər yəhudilərin borclarını silərək bütün dünyada öz iqtisadiyyatlarını canlandırırlar.

## Yoxsulluq və ümidsizlik

*"Aristokratiya işçilərin əməyindən yararlandığı üçün özünə işləyən işçiləri sağlam görmək istəyir. Halbuki biz aclıq və qıtlıqla bütün işçilərin güclərini qırmaq və onları tamamilə bizdən asılı vəziyyətə gətirməyi üstün tuturuq. Bütün gücünü, enerjisini itirən işçi qrupları kapitalist quruluşun sakit və ayrılmaz parçalarına çevrilirlər".*

*3-cü protokoldan*

Protokollara görə, despot və diktator rejimlər yəhudilərin məqsədlərinə ən yaxşı qulluq edən rejimlərdir. Amerika müharibəyə girdikdə yaranacaq "səfərbərlik vəziyyəti və qanunları" prezidentimizi də diktatora çevirəcək. Buna görə prezident 3 yanvar 1940-cı ildə Konqresin açılışında belə demişdi:

"Bildiyiniz kimi, demokratik üsullar müasir tələblərə cavab verməyəndə yalnız diktatura vasitəsilə sürətli və qəti nəticələr əldə etmək mümkündür".

Diktatorluğa gedən iki yol var: müharibə və yoxsulluq. Stalin və Çörçil müharibə, Mussolini və Hitler isə yoxsulluq sayəsində diktator oldular. Prezident Ruzvelt isə eyni vaxtda hər iki yolu sınayır. Görülən iqtisadi tədbirlərlə yoxsulluq artırılır, prezident və "tərəfkeş media" cəmiyyətdə müharibə qorxusunu ölməyə qoymurlar. Müharibə xərcləri ölkədə keçici iqtisadi canlanma yaratsa da, özü ilə fövqəladə vəziyyəti zərurətə çevirən və diktatorluğa aparan şərtlər də gətirir. 1929-cu və 1940-cı illərdə dolların başqa pul vahidlərinə nisbətdə dəyərini müqayisə edəndə Amerika dollarının çox dəyərli olduğu, buna görə də ölkə ixracatı azaldığı halda idxalın anormal şəkildə çoxaldığını görürük. Burda qazanan idxalçılardır, çünki idxal olunan məhsullar daha ucuz başa gəlir və ucuz satılır. Dolların qiymətinin yüksək olmağı azmış kimi, Konqres demokratların səs çoxluğu sayəsində "Qarşılıqlı ticarət haqqında Hull qanunu" qəbul edib. Bu qanuna görə, Amerikada xarici malların alıcısı olduğu halda öz məhsullarımızın ixracatı azalır, amerikalı işçi və sahibkarlar yoxsullaşır. Yəni amerikan istehsalatçısı öz vətənində ticarətdə üstünlüyü itirib. Amerikalı istehsalatçının beynəlxalq bazarda öz yerini itirməsinin üç səbəbi var:

- Embarqo və müharibə təhlükəsi səbəbindən ticarət edən ölkələrin sayının azalması;
- Ticarət əlaqələri qura biləcəyimiz ölkələrin əlində kifayət qədər dollar və qızıl ehtiyatının olmaması;
- Bu ölkələr yeni pul vahidi vasitəsilə beynəlxalq ticarətin yollarını axtarırlar.

Doroti Tompson bir məqaləsində Hitlerin Avropa İttifaqı, gömrük ittifaqı və yeni Avropa pul vahidi yaratmaq istədiyini yazırdı. Bax, dünyadakı qızıl ehtiyatlarının 80%-nə sahib olmağımızın nəticəsi budur.

Hazırda dünyada semit və antisemit, şaçqa adlı faşist və yəhudi diktatorluğu var. Mussolini və Hitler antisemit

faşist rejimini yaradanda Sovet İttifaqı və İngiltərə yəhudi və ya semit diktaturasına can atırdılar. Norveç qalmaqalından sonra diktator seçilən Çörçil ilk olaraq "Beşinci Qol" adı verdiyi antisemit qrupun üzvlərinin həbsini və edamını tələb etmişdi. Yəhudilər sayəsində baş nazir olan Çörçil İngilis imperiyasının öz torpaqlarını itirməsi bahasına da olsa, müharibədən dörd əlli yapışıb.

Eyni tərzdə prezident Ruzvelt də Almaniyanın hədələrini səbəb göstərərək, Konqresdən üçüncü dəfə yeni vergi qanunları və borc alma hüququ istəmişdi. Prezident qabağında səsini çıxarda bilməyən Konqres aşağı gəlir sahiblərinə böyük, varlılara isə aşağı faizli vergi artımını dəstəkləyərək prezidentin istəyini həyata keçirmişdi. Konqres həm də prezidentin istiqraz alma səlahiyyətini 45 milyard dollardan 49 milyarda qaldırmışdı. Maraqlıdır ki, qızıl ehtiyatları və bonolar olmadan dünyanın ən güclü döyüş texnikasını yaradan Almaniya ilə müqayisədə dünyadakı bütün qızıl ehtiyatlarının 80%-nə sahib olan Amerika 40% artırılmış vergiləri və 4 milyard dollarlıq istiqraz ixracı ilə hələ heç işə başlamayıb.

Əslində Ruzvelt metodu dolların dəyərini düşürərək müharibə xərclərini qarşılamağa imkan yaradır, amma bu metod tətbiq olunmur. Bütün nüfuzlu iqtisadçıların da dediyi kimi, Amerika qızıl ehtiyatının 40%-i ilə rahatca 45.000.000.000 dollarlıq borcunu, 10.000.000.000 məbləğində müharibə xərclərini ödəyə bilər. Hazırda prezident Konqresdən məhsullarını və torpaqlarını almanlara satmasınlar deyə Cənubi Amerika dövlətlərinə 500.000.000 dollar miqdarında yardım etmək üçün səlahiyyət istəyir. Bu, sadəcə, bir başlanğıcdır və iflasa uğrayana qədər Amerika hələ buna bənzər çox hədiyyələr etməli olacaq. Ruzvelt bir həqiqəti görmək istəmir: Cənubi Amerika ölkələri hardan daha çox mənfəət əldə etsələr, o ölkə ilə də ticarət quracaq-

lar. İkinci həqiqət isə odur ki, Almaniya Cənubi Amerika ölkələrinə bizdən daha çox şey verə bilər. Almaniya pulunu qızıldan asılı etmədən, borca girmədən pul kütləsini idarə edərək beynəlxalq ticarətini qurur. Halbuki Amerikanın istehsaldan qazandıqlarının yarısı vergi və kredit faizlərinə gedir. Almaniya kimi kredit və faiz yükü olmayan bir ölkə ilə Amerikanın rəqabətə girməsi qeyri-mümkündür. Nəticədə Amerika borclarını və faizlərini silməyincə azad olmayacaq.

## *Amerika müharibəyə qoşulur*

*"Avropadakı xristian dövlətlərini nəzarətimiz altında saxlamaq üçün bəzən birinə və ya bir neçəsinə terrorla zərbə endirə bilərik. Bu ölkələrin hamısı birləşib bizə qarşı çıxsalar, Amerika, Çin və ya Yaponiyadan onlara qarşı istifadə etməliyik".*

*7-ci protokoldan*

Prezident Konqresin təsdiqi olmadan qanunları pozaraq, müharibə nazirinə xüsusi əmr verərək, silah-sursatın özəl firmalara dövr edilməsinə və müttəfiqlərə satılmasına şərait yaratmışdı. Bu üsul 1907-ci il Lahey konfransının və 1918-ci il Birləşmiş Ştatlar Bitərəflik Sazişinin qərarlarına zidd çıxmamaq üçün seçilib. Hər iki razılaşmada dövlətlərin başqa dövlətlərlə müharibədə istifadə etmək üçün gəmi, pul, silah-sursat və digər döyüş ləvazimatları satmağı qadağan edilib, ancaq bu hal özəl qurumlar və şəxslər üçün keçərli deyil.

10 iyun 1940-cı il tarixində Ruzvelt Virciniyada etdiyi çıxışlardan birində "Müttəfiqlərə ölkəmizin bütün qaynaqlarını açacağıq!" demişdi. Yəni o etmək istədiyini dilə gətirmişdi. Prezident bütün beynəlxalq razılaşmaları və bitərəflik sazişini heçə sayaraq xalqın adından Amerikanın bütün qaynaqlarını müttəfiqlərə açıb. Yəni iflasın astana-

sındakı Amerika İngiltərəni qurtarmaq adı ilə müharibəni gözə alıb. General Hug S. Conson prezidentin dolayı yolla müttəfiqlərə silah-sursat yardımı göstərdiyini eşidib belə demişdi: "Bu, müharibə qərarıdır. Prezident Konqresi saymadan ölkəmizi müharibəyə qoşub".

Artıq prezident utanmadan müharibə qərarını dünyaya elan edir. Bundan sonrakı addım müttəfiqlərə silah-sursat göndərmək, ardınca da əsgərlərimizi yollamaqdır. Daha sonra da növbə Ruzveltin öz diktaturasını elan etməyə gələcək. Bir neçə gün əvvəl prezidentimiz Fransa baş naziri Reynadın yardım istəyinə "Fransızlar dözə bilsələr, onlar üçün hər şey edəcəyik. Amma müharibə elan etmək səlahiyyəti Konqresə məxsusdur" – deyə cavab verib.

Çörçil Aşağı Palatadakı nitqində: "Fransa baş naziri təslim olmaq məcburiyyətində olduqlarını dedi. Mən də ona tövsiyə etdim ki, Amerikadan müharibəyə girməyini istəsin" – deyə bildirmişdi. Bu iki siyasətçinin Ruzvelti müharibə qərarı almağa məcbur etməyə nə haqları var? Ruzveltdən müharibə qərarı ala bilməyən Reynad sonda Fransanı Almaniyaya təslim etdi və yaxın dostu Corcs Mandel (Jerobim Rotşild) ilə birlikdə ölkədən qaçdı.

Fransanın oyundan çıxması ilə Çörçil, Daff-Kuper və Enthoni Eden təşvişə düşərək bir-birinin ardınca etdikləri radio çıxışlarında İngilis xalqına yaxında Amerikanın yardıma gələcəyi barədə söz vermişdilər. Heç bir zəmanət olmadan Amerikanın yardımına bu qədər inam hardandır?

Amerikanın müharibəyə qoşulacağına inam Ruzveltin Münhendə "Bir daha Münhen konfransı istəmirik!" sözündən, Ballit və Kennedinin Fransa, Polşa və İngiltərəyə verdikləri zəmanətdən qaynaqlanır. Radio diktoru Edvin C. Hill bildirir ki, Ruzvelt bir neçə yaxın dostuna müharibə elan etməyi düşündüyünü deyib. Konqres prezidentin edəcəyi bir çılğınlıqdan qorxduğu üçün tətilə çıxmağı rədd edib.

Prezident sayəsində Almaniya və İtaliyaya müharibə elan etmiş vəziyyətdəyik. Bəlkə yaxında Yaponiya və İspaniya ilə də müharibə edərik. Sovet İttifaqının müharibə edən tərəflərin zəifləməyini gözlədiyi, vaxt qazanmağa çalışdığı da göz qabağındadır. İstədikləri Millətlər Təşkilatını hələ də qura biməyən "Sionist Ağsaqqallar Məclisi", nəhayət, bütün dünyanı müharibəyə qoşub. Kim bilir, bəlkə də bu dəfə sionist dünya dövlətini qura biləcəklər.

Onsuz da Ruzvelt, demək olar ki, diktatorluğunu elan edib. Konqresdəki vacib şəxslərin ölkəmizin özünümüdafiə ehtiyacı yaranmasa, müharibəni qəbul etməyəcəklərini deməklərinə rəğmən, prezident ölkəni müharibəyə salıb. Son vaxtlar mətbuatda yer alan xəbərlərə görə, Ford Motor İngilis Kral Hava Donanması və Amerika Hava Qüvvələri üçün təyyarə mühərrikləri istehsal ediləcək. Henri Ford bu xəbərlərin yalan olduğunu, firmasının yalnız Amerikanın müdafiəsi üçün təyyarə mühərrikləri istehsal edəcəyini və heç bir şəkildə ingilislərə döyüş maşınlarını hazırlamayacağını bildirmişdi. Müdafiə Sənaye Komitəsi naziri Knudsen isə demişdi ki, Ford ingilislər üçün mühərrik istehsal etmək istəmədiyinə görə bu məsələdə razılaşma əldə olunmayıb.

Bu xəbərlərdən və təkziblərdən aşağıdakı nəticə çıxır: Müdafiə Sənaye Komitəmiz ingilis hökuməti üçün döyüş sursatı hazırlatdırmağa çalışır;

Müdafiə Sənaye Komitəsi Amerikadan çox İngiltərənin döyüş ehtiyacları ilə maraqlanır;

Müdafiə Sənaye Komitəsi İngiltərənin əvəzinə müharibə sənayeçilərinin haqqını ödəmək qərarına gəlib.

Yəni iliyinə qədər vergi içində boğulan amerikalıların pulu ingilislərin müharibə xərclərini, yəni Rotşild ailəsinin gəlirlərini maliyyələşdirmək üçün istifadə edilir.

